*Vasif Əlihüseyn*

# AZMIŞ KİMİ...

**şeir və esselər**

MÜCRÜ
NƏŞRİYYAT

*Naşir: Müşfiq XAN*
*Ön söz: Qulu Ağsəs*
*Redaktor: Hicran Hüseynova*
*Texniki redaktor: Aytən Qurbanova*
*Dizayn və qrafika: Fərid İlham*

"**Ulduz**" jurnalı ilə "**Mücrü**" *nəşriyyatının birgə layihəsi*

Vasif Əlihüseyn. Azmış kimi... Şeir və esselər
Bakı, "Mücrü" nəşriyyatı, 168 səh.

*Vasif Əlihüseynin oxucularla dördüncü görüşü olan bu kitabda ictimai-siyasi, vətənpərvərlik notları ilə yanaşı, haqq-ədalət, sevgi motivləri də önə gəlir. Müşahidə dəqiqliyi, özünəməxsus yanaşma tərzi, mövzu rəngarəngliyi müəllif yaradıcılığının oxucu sevgisi qazanacağına əminlik yaradır.*

*O, 1985-ci ildə Cəlilabadın Muğan kəndində anadan olub. Moskva Sosial Dövlət Universitetinin filologiya və Bakı Slavyan Universitetinin yaradıclıq fakültələrini bitirib. Azərbaycan Yazıçlar Birliyinin üzvüdür. "Ayrılığın rəngi", "Divara yazılmış azadlıq sözü", "Cənnət yolçuları" adlı kitabların müəllifidir. 2009-cu ildən mətbuatda peşəkar jurnalistika ilə məşğuldur.*

Bu kitab "**Mücrü**" nəşriyyatının "**Poeziya**" seriyasında nəşr edilib. Müəllifin rəsmi razılığı olmadan təkrar çapı və çoxaldılması qadağandır.

ISBN: 9789952222791

**© Vasif Əlihüseyn / 2022**

## Vasif Əlihüseynin özüylə söhbəti

... Hətta qəzetdə işləyəndə də (!) elə bilirdim ki, radiodakılar səsdi, adam deyillər. Ora dəvət alanda çox təəccüblənmişdim, fikirləşdim, yəqin özüm işə getmərəm, hardansa xəttə qoşulub danışmalıyam...

Vasif Əlihüseyni həyatda görüb-görmədiyimi xatırlamıram, hər həftə zəng edib məndən nəyləsə bağlı açıqlama alır, bir azdan da moderator.az-ın linkini yollayır; sayta girib baxıram: Vasifin günə üç-dörd yazısı gedib, əksəri də qısa müsahibə. Bu adam özüylə nə vaxt danışır? – elə düşünəsiydim, Əlihüseyn aman vermədi, bir qalaq şeir və esseni emailimə yolladı.

Açıb oxudum: bunlar Vasif Əlihüseynin özüylə müsahibələridi, Vasif sual verib – Əlihüseyn cavab. Amma ikisinin də susduğu anlar var bu yazılarda, Vasifin də, Əlihüseynin də, lap elə üçünün – Vasif Əlihüseynin də qaldıra bilmədiklər bir ağırlıq: onun adı İtkidi! Vasifin çapa hazırlanan kitabı müxtəlif bölümlərə ayrılır, amma onların hamısını birləşdirən mövzu eynidi.

*Müharibə şeirlərində güllə əsgərə dəyir,*
*amma ana şəhid olur,*
*sevgidən yazanda atılan oğlandı,*
*ancaq özünü iztirabdan həlak edən anadı,*
*ataya həsr etdiyi nəzmdə də anadan söhbət gedir –*
*duaları düşməni cavab atəşiylə susduran anadan!*

Vasif anasını erkən itirib, onu bu yazılarında təzədən yaşatmaq istəyirmiş kimi gəldi mənə. “Ən çox bir il

davam edir 20-ci əsrlərdə ölüm ağrısı" – deyirdi Nazim Hikmət. 21-ci əsrlərdə Vasif Əlihüseyn belə demir...

Saytdakı yazılarına baxanda səliqəsizliyinə əsəbiləşirdim, kitabının əlyazması ondan da pintiymiş, nöqtə-vergülü gərək döşəmədən yığıb yerinə düzəsən. Vasifin yazı-pozusu anasız evi xatırlatdı mənə. Bunu kitabı oxuyanda anladım. Tör-töküntü evdə yerbəyerində olanlar da az deyil:

*məsələn, göz yaşı,*
*məsələn, iztirab,*
*məsələn, ...*

Yazdıqlarım sizi qorxutmasın, kitabda oxunacaq başqa mətləblərə də rast gələcəksiz:

*metro keçidindən keçən uşaq kimi*
*əyilib ömrün altından keçirəm*
*qocalmamaq üçün...*

Hətta yumora da:

*kəndimizdə əsgər gedən oğlanların*
*yolunu gözləyən qızlardan daha çoxdu*
*universitet oxuyan qızların*
*yolunu gözləyən oğlanlar;*
*oturub fikirləşirəm,*
*nə yaxşı sevdiyim qızın anası*
*məni bu küçənin tinindən*
*qovdu...*

2022-ci ildə “Ulduz” jurnalı “Mücrü” nəşriyyatıyla birgə yeni layihəyə başladı. Elçin Hüseynbəylinin hekayələri yanvarda, Əflatun Amaşovun romanı martda işıq üzü gördü. Bu ay üçün Vasif Əlihüseynin “Azmış kimi...” şeir və esselər kitabını planlaşdırırıq.

Vasif Əlihüseyn bu kitabı iki daşın arasında macal tapıb yazıb. Sayt işini bilirəm, nəfəs dərməyə imkan vermir. "Azmış kimi..." istedadlı gəncin "dizüstü" yaradıcılığıdı. Oturub yazdıqlarını oxumaq ümidi ilə:

**Qulu AĞSƏS**
12 aprel 2022

**P.S.** Niyə "Azmış kimi..."? Qələm adamının bu dünyada nə azarı var, nə gəzir – azmış kimi? O mənadamı? Ya insan niyə nəsə yazsın – alın yazısı azmış kimi? Bəlkə bu mənada? Sən nə düşünürsən, Oxucu?..

*Kitab 49 yaşında xərçəngdən dünyasını dəyişən*
*anam Şəlaləyə həsr olunur*

**Sənin duaların düşməni cavab atəşiylə susdurmaqdı, ana!**

## ATAMIN AYAQLARI

Evimizin üstündən uçan vertolyotlar
müharibəni xatırladar,
ona görə əllərini
ağızlarına vura-vura qışqırar kənd uşaqları.

Əmim incik düşdüyü adamlarla
protez əli ilə görüşər.

Barmağını
müharibədə itirmiş atalardan
yarımçıq saymağı öyrənər uşaqları.

Atamın protez ayağı
ən sevimli oyuncağım olub –
nə olduğunu bilməyənə qədər.

O vaxtdan anamın səsi qalıb qulağımda:
– Ay oğul, atanın ayaqlarını gətir, işə getsin!

## TƏKİ VƏTƏN SAĞ OLSUN

Sükut çökmüş küçədə
qışqırdığımız üçün
qınamayın  bizləri.

Bizim küçəmiz
belə sakit olmayıb.
Anamın çağırmasından öncə
güllə səsinə oyanmışıq.

Boyu balaca adamlara
güllə dəymədiyi üçün
heç kim istəməzdi böyüsün kəndimizdə.

Sən bilməzsən
öz evində əyilə-əyilə gəzmək
ne deməkdi.

Atam şəhid olanda
məktəbə gedirdim,
bayrağı da ilk dəfə onda görmüşdüm.
Həmişə elə bilirdim, bayrağı çiyində gəzdirirlər,
sonra bildim atamın içində olduğunu.

Hər dəfə atamın ölümünü
xatırlayıram
deyilən bu misrayıla:
"TƏKİ VƏTƏN SAĞ OLSUN"

## SƏNİN DUALARIN

Əsgər oğluyla
eyni saatda oyanar
kəndimizdə anam.

Cəbhədəki atışma səsləridi
ürəyindəki çırpıntılar.

Səngərlər insan boyunda qazılmış
alın yazısıdı,
kimi ölümə gedər,
kimi evinə.

Anaların namaz üstə olduğu
bir vaxtda
yayınar güllələr.

Sənin duaların
düşməni cavab atəşiylə
susdurmaqdı, ana!

## YAŞLI QADININ MƏNDƏN SORUŞDUQLARI

İllərdir o vaqunda yaşayan yaşlı qadın
soruşurdu hər dəfə, deyirdi, sən bilərsən,
yaşadığım bu vaqon nə vaxt yola düşəcək?
Şuşamıza gedəcək?

Bilmirdim cavabını, öz içimdə yanırdım,
vaqonun da hələ ki yola düşməyəcəyini
deməyə utanırdım...

Deyirdi ki, ay oğul, 93-də bizləri
bu qatara mindirəndə dedilər ki, gözləyin,
Şuşaya gedirsiniz,
amma qatar getmədi,
biz bu stansiyanın sərnişininə yox e,
sakininə çevrildik;
qız köçürdük,
oğul evləndirdik,
amma özümüz köçmədik qatardan...

Aradan 27 il ötdü...
Şükür, Şuşam alındı,
qatar yola düşəcək,
indi o yaşlı qadın torpağına gedəcək!

Ürəyim gup-gup atır,
xeyirim, savabım var;
o qadına deməyə
daha cavabım da var...

## YOX, BELƏ OLMAZ VƏTƏN

Cavan-cavan balalar
səsin, küyündə gəlir.
Gedəndə sağlam gedir,
geri çiyində gəlir.

Bilirəm, anamızsan,
bacımızsan, ay vətən!
Bir tərəfi qırılmış,
acımızsan, ay vətən!

Yox, belə olmaz, vətən,
lap düzlərin dağ olsun.
Nə qədər balan öləcək,
nə qədər başın sağ olsun?!

## ÇİMNAZ XALA

Torpaqdan
suvanmış evlərdə böyüyər
gələcəyin Şəhidləri,
hər tərəfi torpaq evdə
canlarına hopar
torpaq sevgisi...

Tabutu sığmaz evinə Şəhidin,
keçməz qapısından...
üçrəngli bayrağımız
həm villaların üstündə dalğalanar,
həm də Şəhid komasının...

Bəs sənin köhnəlmiş bayrağını
kim təzələyər,
ay Çimnaz xala?!

## XOCALI FACİƏSİNİN QURBANLARINA

İlahi, bu dil bilməyən
körpəni öldürmək nəydi?..
Günahsız olan uşağın
mələk olduğu deyilir,
adam ürəyini yeyir…

Kimin əli qalxıb ona,
qisası Allaha qalsın!
Bu körpəni kim öldürüb,
günahın boynuna alsın!

Nalə çəkən bir anadır,
ağı deyən min-min dildi…
Qisas, qisas, deyə-deyə
artıq görün neçə ildi…

Bətni yarılmış ananın
halına necə ad verim?
Səndən o yanası yoxdu,
İlahi,
Sənə kimi and verim?

## KƏSİLMİŞ ŞALVAR AYAQLARI

Qürur hissi keçirir
ərinin təkayaqlı
şalvarını yuyan qadın,
amma həmişə
ərinin ayağını axtarır
şalvarın bir qıçında...
Bir də gözləri dolur
kəsilmiş şalvar ayaqlarına
qum doldurub yumruq vuran
kənd uşaqlarını görəndə...

## YARALI ƏSGƏRİN İLK ADDIMLARI

Yenicə yeriyən uşağın yerişinə bənzəyir
yaralı əsgərin ilk addımları,
dil açıb “Vətən” sözü deməsinə
sevinir anası:
“Ay Allah, sənə şükür,
balam danışdı!”

Oğlunu şəhid verən ananın
əlləri asılı qalıb
ədalətin yaxasından...

Oğlunun qanlı pulunu
yadigar saxlayan şəhid anası
qıymaz o pula
dükandan çörək almağa...

**Şəhid Tural**

*Vətən müharibəsində şəhid olan*
*kəndlim Turalın xatirəsinə...*

İndi gəl öz adınla
göylərə ucal, şəhid.
Torpağa sevgisiylə
tanınan Tural şəhid.

Sən idin o düşməni
sındırıb, diz çökdürən.
Özünü əsgər bilib,
rütbəsini sökdürən.

Vətən səni çağırdı
dar gündə köməyinə.
Öz oğlu olmasaydın,
nəyinə lazımdın, nəyinə?

Gedirdin sən irəli,
mərd atası Yağmurun,
arxada ləngiməyə
yol verməzdi qürurun.

Getdin, ucaltdın bizi,
oğul, üzün ağ olsun!
Yenə atan sınmadı,
dedi, vətən sağ olsun!

## QIZIM ŞUŞA

*Şəhid kapitan Elçinin yeni doğulan qızına*
*Şuşa adı verilib.*

Mən Şuşanı çox sevirdim, qızım,
Şuşaya gedib çıxa bilmədim,..
yolda şəhid oldum,
amma ölmədim…
Məndən sonra adını
Şuşa qoydular, qızım,
mən sənə gələ bilmədim…

Sən gəl qəbrim üstünə,
quca, qızım,
uca qızım,
Şuşa qızım.
Şuşanın qəhrəmanı olmağı düşünürdüm,
amma atası oldum,
uzanıb torpağında
yatası oldum, qızım,
uca qızım,
Şuşa qızım,
yanaqların Cıdır düzüdü,
bulaqları gözündü,
küləyi nəfəsindi,
elə hər şey özündü,
uca qızım,
Şuşa qızım…

## ŞƏHİD HƏSƏN...

Şəhid Həsən,
sənə əhsən
ki, vətənin
bu günündə öndə getdin,
şəhidliyin zirvəsinə elə yetdin,
mərd, qürurlu, üzüağ –
uca zirvə, uca dağ!
Düşmənin bağrın yarıb
səsin kəsən –
şəhid Həsən,
sənə əhsən!
Sən ucaltdın kəndimizi,
təzələdin şəhid izin,
süründürdün düşmənləri dizin-dizin.
Yox oxşarın, yox bənzərin,
biləsən,
şəhid Həsən,
sənə əhsən!

**Qulu Ağsəsə...**

gözünün qarası da
ağı da aydın
Ağdama qayıdın,
qayıdın, sizə qayıdan Ağdama
altı yaşımda işğal olunan o rayonu
ayağıyalın qadının gəlişiylə xatırlayıram
ürəyinizə otuz illik nisgilin
sevinci dama-dama
qayıdın, sizə qayıdan Ağdama
şəhərin girişində
şeh tutmuş eynəyini çıxar gözündən
köynəyinin ətəyinə sil
oba-oba, nəsil-nəsil
qayıdın, sizə qayıdan Ağdama
gözlərini ver şəhərin havasına
qol qaldır, oyna
uçmuş evlərin, qəbirlərin yasına
bu qalibiyyət, bu qovuşmaq dünyasına
xoş gəlmisiz!
qayıdın, sizə qayıdan Ağdama...

## KƏNDİMİZ

bu il də qar yağdı,
bu il də
isinməyə ümid gəzdi
kəndimiz.

aldatdılar, qaz da çəkmədilər
kəndimizə.
babamdan yadigar Tut ağaclarının
budaqlarını qırdıq yenə də,
bacalar tüstülədi göylərə
soyuqdan.

ərləri xaricə
çörək dalıyca getmiş gəlinlər
bir toyuq başı kəsdirməyə
kişi tapmadılar.

sünnət olunmamış uşaqlara
“Bismillah” öyrətdilər
bir də Qibləni göstərdilər.

beləcə hər qış kəndimiz
neçə ağac yandırıb
çəkdi ciyərlərinə.

ümidləri
bir az  daha çox qırıldı gəlinlərin
toyuq başı kəsən uşaqların
sayı azaldıqca...

## BABAMIN ƏL QUYUSU

Babamın əl quyusu var,
hələ də qonşu qadınları
su daşıyır ordan.

Hər yay qarpız tullayardı ora babam,
sonra başına yığardı nəvələrini,
süfrə açardı nənəm.

Hər dəfə paltar yuyanda
su çəkərdi nənəm.
Su zəncirini dəmirə dolayardı,
ömrünü isə oğluna, qızına,
nəvələrinə, bir sözlə, bizlərə "doladı".

Sonra qəfildən köçdü aramızdan,
məəttəl qoydu hamımızı.
Elə özü də belə istəmişdi,
xəstə yatmağı xoşlamırdı.

İndi hərdən babama deyirəm:
– Baba, ömrünü az "dola" bizlər üçün,
bir az da özünçün yaşa...

*At arabasına nömrə vurub*
*maşın arzusunun*
*başını qatarlar kənd uşaqları...*

## TALE

Sən dünyanın
ən köməksiz insanısan.

Döndüyün ata evində də
gülər üzlərin ömrü
bir həftə sürəcək.

Dayanıb
hönkür-hönkür ağladığın
ana məzarında
əkdiyin güllərin
ləçəkləri islanacaq
göz yaşlarından.

Sən köməksizsən,
iki körpə balanla.
Ovuclarında bir qız
və bir oğlan uşağının
soyuq əlləri titrəyir.

Dərdini kimə deyəsən?
İndi özün
günahkarsan, deyəcəklər,
dözməliydin deyəcəklər
gecələr sərxoş gəlmiş
kişinin təhqirlərinə,
daha nəyə, nələrə...
İndi özün sızlayırsan
o günlər üçün...

**ÖMÜR**

Bax belə
Sənə zarafat gəlir,
hər şey.
Əzrayılın
əsəblərinə  toxunur
güldüyümüz dəqiqələr.

Nə vaxtsa
adamların qolları
metro eskalatorları olacaq.
Biz isə
metro sərnişinləri kimi
qollarında enəcəyik
yerin altına.
Minəcəyik
o dünyanın qatarına
gedəcəyik,
"Nizami" dayanacağında
düşmək şərtilə...

## SƏN BİLMƏZSƏN

Sən bilməzsən
darıxmaq nə deməkdir
burda.

At arabasına
nömrə vurub maşın arzusunun
başını qatarlar kənd uşaqları.

Və bir də
"Bəxtinizi bir daha sınayın" kimi
aldanışlara ümid bağlayarlar.

Hər dəfə gözlərini dikərlər
"semiçka" qutularına.

Sən bilməzsən
yaşamaq nə deməkdir burda.

Əllərin, qolların palçıq
olmalıdı.
Yaşamaq üçün
donmalısan soyuqda.

**ANAM**

Üzünü
bu şəhərdən gizlədib
Hər sabah yolları
süpürən anam.

Baxışındakı  gileyi
süpürə bilməyəcək zaman
gözlərindən
və bir də alnındakı qırışları
ütüləyə bilməyəcək.

Qulaqlarını tutmuş
tıxaclı maşınların
siqnal səsləri
ürəyində sadaladığın
ehtiyacların sırasını
poza bilməyəcək, anam.

Ən yaxşısı
gedək kəndimizə,
qapı-bacamızı süpür.
Bir də
sıyır yaşmağını
kəndimizə üzüaçıq bax.

Və unutma
şəhərdən gətirdiyin
küçə adlarını,
çünki "Qəhramanlar unudulmur".

## QƏBRİNDƏN ƏL BOYDA YER AÇ

*Avtomobil qəzasında*
*həlak olmuş babam*
*Qulamhüseynin xatirəsinə*

Köçdü adam oğlu adam,
bələndi dünya qanına.
Babam da köçdü dünyadan,
getdi nənəmin yanına.

Açın bu dəmir qapını,
"Gələn var" – deyə çığırın.
Babamı görməyə gəldim,
adını deyim, çağırın.

Duyun səsimi, siz duyun
ay səsi burda batanlar!
Babamı sizə tapşırram,
ay burda çoxdan yatanlar.

Getdin, babalar babası,
büründün sən də ki, ağa.
Qəbrindən əl boyda yer aç,
toyumda səsi duymağa.

Gəldim məzarının üstə,
qəm-kədərlə, göz yaşıyla.
Uzan çarpayında rahat,
danışaram başdaşınla.

## BACIM ÜÇÜN

Gecə saat ikidi, bacı,
gündüz içdiyim çayın,
yatdığım yuxunun üstündəyəm.

Anamız xəstədi, bacı,
deyiblər, təcili Bakıya çatdırın
bilirsən, Bakının adı ağırdı,
Bakının daşı
tez düşər xəstələrin başına.
Qız vaxtı qaçdığı küçələrə
həsrətlə baxar anamız,
hər addımbaşı bir dayanacaq tikər,
hər addımbaşı bir az unudar gəncliyini.
Sən də anasan, bacı,
hər gecə ayaqlarının üstündə
lay-lay çalarsan qığıldayan körpənə.

Anamız xəstədi, bacı,
deyiblər, təcili hamını görsün,
təcili haranı istəsə, göstərin,
təcili kimi çağırsa, gəlsin,
sən də uşağı götürüb
gəl, bacı,
anamızı görməyə.

## KÜRDƏXANIDA YAŞAYAN GƏNCİN ETİRAFI

Hamının çıxıb getdiyi küçələrdə
Yağışdan sonra palçıq da dizəcəndi.
Hələ bacasından tüstü çıxmayan evlərdə
Körpələri də böyük sırıqlara bələyiblər.

Zirzəmisinə qrunt suları dolmuş evlər
Böyrəyinə su yığılmış insanlar kimidi...
Hə, bir də döşəməsində gəzən insanların
Ayağındakı ağrılar... nə xəstələyidi bilirsiniz.

Hamının içində bir peşimanlıq şüarı:
"Bilsəydik Bakı buradı, gəlməzdik"
Görməzdik Bakını, ölərdik kənddə öz
xarabamızda...

Qayıdıb kəndimizə getmək lazımdı
Elə bizi Bakıya görə sevən kənd qızlarımızdan da
üzr istəməliyik.
Deməliyik: Bağışlayın sizi Bakı adıyla bataqlığa
gətirdiyimiz üçün...

## DÜNYANIN ƏN TƏHLÜKƏLİ MÜHARİBƏSİ

Kəndin işsiz kişilərinin gücü
qadınlarına çatar ancaq,
hələ siqaretlərini də
nisyə alarlar dükandan qadınları.

Kənd qadınının
ərindən umduğu sevgidi
üzündəki şillə izləri,
qadın elə bilir döyülməlidi,
kişi elə bilir, döyməlidi;
burda qadınlar palaz ayaqlayar
kişilər isə qadın...

Atalara qarşı nifrət hissidi
qadın bətninə vurulan təpiklər.

Evə sərxoş gələn kişilər
sonradan anlayacaq
dünyaya şikəst uşaq gətirdiklərini.

Dünyanın
ən təhlükəli müharibəsidi
böyüklərin uşaq yanındakı davası...

Onlar sonradan görəcəklər
uşaqların bədənindəki
qəlpələrin ağrısını
onda hər şey gec olacaq.

## ONDA DAHA BÖYÜK GÖRÜNÜRDÜK

Gözəl uşaqlığımız vardı
kəndimizdə,
park nə idi, bilmirdik,
qoyun nabatında
oxuyardıq dərsimizi...

Onda nənəm-babam sağ idi,
o qədər qoca vardı
kəndimizdə;
qocaların hesabına
uca idi kəndimiz də.

Onda pulsuz vaxtlarımız var idi,
bizə də öyrətmişdilər
cibi boş kişilərin
nisyə siqaret almağını...

Onda daha böyük görünürdük
atamız-anamız arxamızda gizlənəndə,
işıqpulu yığanlara:
– Evdə heç kim yoxdu – deyəndə.

Atamın sağ əli üçün
aldığı təqaüd də bir işə yaramırdı,
deyirdi bu nə puldu
tək qolla yaşayan adam üçün...

İndi hamımız təkik
atamın sol əli kimi.

# YERİ, ÇƏLİKLƏRİN QOLUNA GİRSİN

*Hər gün səhər Koroğlu metrosunda*
*dilənən bir ayağı protez qadın üçün*

Boynunu çiyninə əyib qolların,
indi söykəndiyin bir çomağın var.
Soyuqda əlini açıb hamıya,
soyuqda sızlayıb ağlamağın var.

Sən axı anasan, hanı bəs oğlun?
Gəlib anasının qədrini bilsin.
Qızların da varsa, qoy xoşbəxt olsun,
əgər oğlun varsa, qoy yerə girsin.

Hərə bir söz dedi şikəst canına,
bezdin hər kəlmədən, hər sözdən doydun.
Heç kim inanmadı ayağın yoxdu,
axırda çıxarıb kənara qoydun.

Heç kim köməyinə çatmaz sənin, ay ana,
heç kim istəməz ki, yoluna girsin.
Daha oğlanların girməz qoluna,
yeri, çəliklərin qoluna girsin.

## BABAM AĞAPAŞAYA

Üzündən yağır adamlıq,
içində dərd daşısan da.
Bu tayfanın, bu nəsilin,
bərkimiş dərd daşısan da.

Ölüm nə çox gördü bizə
nənəmizi, anamızı.
Uzaq saldı əzizlərlə,
soyuq etdi aramızı.

İçimizdə nə boydana
ağrısı var, acısı var.
Ana-bacı itirmişik,
Allahın ana-bacısı var.

## QADINSIZ KİŞİLƏR

Arvadı ölmüş kişilərin
başına daş düşüb kəndimizdə.

Oturub məzar başında
qadınını vurduğu
əlləriylə silərlər göz yaşlarını...

İndi bilərlər
qadını ölmüş evlərdə
kişilərin lazımsız olduğunu...

dünyanın ən böyük işgəncəsidi
bir qadını ölmüş küçənin,
bir qadını ölmüş evin ,
bir də qadını ölmüş kişinin çəkdiyi...

## OĞLUMUZ UĞUR ÜÇÜN

baş-başa söykənirik
sən olanda sağımda
nəfəsin mənə dəyir
o isti yatağında

mənə körpə üzünlə
gülərək baxmağını
ağzından çıxarmırsan
bal dadan barmağını

hava qaralmamışdan
durub evə qaçıram
qulağımla sinəndə
sənə qulaq asıram

sən də anan kimisən
yolumu gözləyirsən
gecələri Allahdan
hey ağıl istəyirsən

bu şirin oğlan üçün
kim yaraşdırar pisi
deyirsən ki, bu gündən
mənəm evin rəisi

## ATALARI DƏNİZDƏ BATANLAR ÜÇÜN

İndi bütün ləpələr
sahilə doğru gəlir...

Mən atamın əllərini tutmaq istəyirdim
qollarımı dənizə salanda,
ancaq sınıq qərənfillər keçdi əlimə.

İndi bütün qayıqlar,
elə balıqlar da səndən gəlir, ata
sizdən gəlir,
bu boyda məzarı neynirdin?!
Qollarım da çatmır sarılmağa...

Bütün gölməçələr səni xatırlamaq üçündü,
bütün gəmilər tabutundu.

Hər il anam pilotlara qərənfil verir
dənizə səpmək üçün
sənin ad günündə, ata!

Dənizə "ata" deyən uşaqlar kimi
"baba" deyən uşaqlar da doğuldu
və gəlinlər yaşmaq verdi dənizdən
və sən qayıtmadın, ata!

Səndən sonra
külək əsəndə daha çox üşüyürük,
daha çox nigaran qalırıq...

Siz bəlkə də bilmirsiniz
atasını dənizdə itirmiş uşaqlar balıq tutanda
hər dəfə bu cavabı gözləyir:
– Ay oğul, burdayam, tilovu çək!

## SÜPÜRGƏÇİ QADIN

hər gün yol süpürürsən,
hər gün işin zülmdə,
bir qarışından keçir
sənin hər gün ölüm də.

yol süpürüb zibili
torbaya atan qadın
yollarda od qalayıb
isinib, yatan qadın...

bilirəm, imkanın yox,
haray-həşir bu səsdə,
yoldaşın atıb gedib,
uşaqların da xəstə...

o nimdaş geyimini
yusan da, təzələnməz,
yollara zibil atar
qədrini bilməyən kəs.

bax, haçandı yox idin,
bilmirdik ki, neynirsən,
təzə gödəkcən gəlib,
uşaqtək sevinirsən

# ƏLLƏRIN QABAR BAĞLAYIB

*Bir vaxt evində kirayə qaldığın qadın üçün*

Bəlkə də,
bu təkotaqlı evinin
neçənci kirayəşiniyəm, Zərqələm xala.
Görən verdiyim pul hansı işinə yarıyacaq?..
Hansı qızın gəlin köçəcəksə, xoşbəxt olsun.

Bir əlin öz övladlarının,
bir əlin də mənim kimi rayondan didərgin düşən
yetim kirayənişinlərinin üstündədi.
Mən öz evimə köçmək üçün
sən isə təkotaqlı evindən getməyim deyə,
yalvarırsan Allaha,
yalvarıb niyə yolumu bağlayırsan
niyə istəmirsən öz evim olsun?

Getməyim deyə, evimi təmizləyirsən,
yatağımı dəyişirsən,
axı bilmirsən, təmiz olmur...
Ay sonları da tez çatır,
qapımı tez-tez döyür əllərin,
əllərin qabar bağlayıb
qapı döyməkdən, Zərqələm xala!

## UŞAQLIĞIM YADIMA DÜŞÜR...

Kənd uşaqlarının dizindəki qaysaqları gördükcə
uşaqlığım yadıma düşür.
Yadıma düşür yıxılıb burunumu qırmağım,
dizlərimi sivirməyim.
Anamın o yaranı üfürməyi
elə gözəl idi.
elə gözəl idi dizimdəki yaraların
qurumuş qaysaqlarını qoparmaq...

Bu küçənin tinində duran uşaqların
kimdənsə siqaret istəməsi
ömrün arxasından itələmək kimidi-
günə bir siqaret yandırıb
günü yola salmaq...

İndi məktəbdən çıxan şagirdləri görəndə
ona "oxu!" deyən müəllimi dinləmədiyi üçün
başına döyür əllərini...

kəndimizdə əsgər gedən oğlanların
yolunu gözləyən qızlardan daha çoxdu
universitet oxuyan qızların
yolunu gözləyən oğlanlar.
Oturub fikirləşirəm,
nə yaxşı sevdiyim qızın anası
məni bu küçənin tinindən qovdu...

*Ağzımızın çörəyə çatan vaxtı itirdik anamızı...*

## MƏN ƏMİMƏ BƏNZƏMƏDİM

Mən əmimə bənzəmədim, ay ana,
tək qoydum səni –
gələcəyim üçün.
Atama bənzədim,
ana, atamın tək əlini sevdin
gəlin köçəndə.

Doğrusu, hamıdan nigaran
qaldın, ana
Gecələr tək yatdın ata evində,
bir balaca qıfılla bağladın
otağını,
bir balaca qıfıl ümidünə
qorxmadın heç nədən.

## ANAMIN XATİRƏSİNƏ

Ağzımızın çörəyə çatan vaxtı idi,
təzə başlamışdıq ayaq üstə durmağa.
Evin böyük oğlu olmaq, bilirsiz nə deməkdi?..
Anama oğul olmuşdum, qardaş olmuşdum,
dost olmuşdum həm də...

xırda-xırda başladı ağrıları,
adi ayaq ağrısı kimi.
Sonra elə ayaqlarını üzdü bu dünyadan anamın.

Heç kim bilmirdi harda olduğumu
onda, anamın ağrıyan ayaqlarına
sarılıb yatırdım hər gecə.
Sevdiyimi də unutmuşdum,
yazıq qız anamın sağalmağını gözləyir hələ də...
Elə bil gözü var idi ağrıların,
ancaq axşam düşən kimi başlayardılar...

Bir dəfə yuxuda gördüm ki, anam ölüb,
durub anama danışdım, ağladı.
Dedilər ki, ömrü uzun olacaq,
amma sonradan bildim
səhərə yaxın yuxuların doğru olduğunu.

Dünyanın ən çətin gözləntisi
analiz cavabını gözləməkdi
özü də ananın.
O gündən üç gün yatmadım,
əllərimi qaldırıb yerimin içində dua etdim Allaha...

Dua etdim ki, nə xəstəlik olur-olsun
bircə xərçəng olmasın.
amma gəldi xərçəng oldu.

Ağladım,
qızarmış gözlərimlə girdim otağa,
anam üzümə baxıb güldü:
– Niyə ağlamısan,
nəsə var, mənə demirsən?!
Dondum, dondum və elə hönkürdüm:
Vallah, heç nəyin yoxdu, sadəcə qanına mikrob
düşüb, sağalacaqsan.
Sarılıb ana-bala könkürdük,
elə bil bilirdi ayrılacağımızı.
Sonra nə istədiyini soruşdum
armud istədi.
Bacım armudu doğradı,
hərəmiz bir-iki dilim yedik.
Ta səhərisi nə oldu, bildiniz, yəqin...

Hələ də çiyinimdədi
tabutunun ağırlığı,
o qədər ağır idi ki,
elə bil lap dünyanın dərd-sərini aparırdı özüylə.

indi oturub, qollarımda qəbrə qoyub getdiyim
Anam üçün darıxıram o gündən.

## YETİM UŞAQLARA HAMI QIŞQIRAR

Torpağı daha çox sevdim
yastığın olan gündən...
İndi yağan yağışlar
keçirmi heç canına?!

Bu gün bacıma da dəydim, yaxşıdı,
qardaşım da didərgindi qapıdan...
Sən axı bilmirsən,
səndən sonra da
hamımız didərginik o qapıdan...

Bir şərf saxladım
səndən yadigar –
sənsiz vaxtlarımda qoxunu alım,
bacıma övladtək sarılıram ki,
sənin olmadığın yoxunu alım...

Vallah, didərginik evdən-eşikdən,
indi nə səs gəlir,
nə də ki səmir...
Ana, üstümüzə düşən adamlar
sənin varlığını heç cür istəmir.

Mən axı bilmirdim
belə olacaq,
yetim uşaqlara hamı qışqırar,
üç uşaq bu cürə yetim qalarıq,
üç uşaq itirər səadətini...

## ANAM EVDƏ YOXDU

İki evin arasında qaldı bacım,
iki şəhərin arasında;
yollarda yordu ayaqlarını.
Özümdən beş yaş kiçik bacıma
uşaq gözüylə baxırdım həmişə.

Anam öləndən sonra bizi də
öz övladı kimi çağırdı:
Tunar! Tural! Vasif!
Sonra bildim bacımın
məndən böyük olduğunu,
bacılar daha tez böyüyür
analar öləndən sonra...

Küçədə oynayan uşaqların
əlindən tutub analarına apardım.
Bəzən də sevdiyim qızların
gecələri anam üçün ağladım,
gündüzləri adamların üzünə baxıb güldüm;
hamı elə bildi ki, unutmuşam keçmişimi...

Anam heç qocalmadı
49 yaşını da öləndən sonra qeyd etdik...

İndi nə mən o həyətə gedə bilirəm,
nə də bizə oturmağa gələn qonşu qadınları
Dünən yenə kimsə anamı çağırırdı,
bacım pəncərəni açıb dilləndi:
– Anam evdə yoxdu!

## GƏLİNİN GÖRMƏYƏN ANAM

indi belədi adamlar,
belədi iç üzləri.
yalanları bir yana,
unutdular düzləri.

hanı bəs bizim üçün
özlərini öyənlər?
yorulub çıxıb getdilər
dizlərinə döyənlər.

yanımızdan tələsən
bizə qalan adındı
gəlinin görməyən anam,
bu da sevdiyim qadındı...

## ALLAH, ANAM SİZDƏ DEYİL

gah ölümün əlinə,
gah zülümün əlinə
düşə-düşə gedirik,
üzü yoxuşdan gəlib
üzü enişə gedirik.

nə sevdalı adamıq,
nə sevdalı biz başıq,
bu dünyada yoldaşıq,
ölsək, orda yoldaşıq.

indi də çağırırıq,
kimsə bizə hay versin
Allah, anam sizdə deyil?!
De, gəlsin, bizə çay versin.

## DUR, ÇIX GEDƏK EVİMİZƏ

Sən də belə getdin, ana,
sakitcə, fağır-fağır.
Göylərin üzündən yağış,
mənim gözümdən yaş yağır.

İndi susmaq budu mənə,
indi ayrılmaq budu.
Sənin yoxluğun mənə
itkilərin böyüyüdü.

Çox yatdın, deyəsən, burda,
gələn var e evimizə.
Nə var bu qaranlıq yerdə?!
Dur, çıx gedək evimizə.

## GEDİŞİN AĞLIMA GƏLMƏYƏN...

Atamın bişirdiyi yemək kimidi yaşamaq indi...
hərə öz yerini yığır,
hərə öz canının hayındadı evimizdə,
gedişin ağlıma gəlməyən
ayrılıqlar kimi oldu, ana!

ta adına dükanda nisiyə də yoxdu,
axırıncı borcunu da ödədim,
dükançı adını qaraladı
nisyə dəftərində.

bircə sənin olmamağın imiş
evimizdə hər şeyin olmamağı...
sənin yatmağından sonra
hamımız susmuşuq,
heç kim ayağını çırpmır döşəməyə...

səni axtaran qonşu qadınlarına da
yerini deyə bilmirəm...

## YATMAQ OLMUR...

sən olmayan evə də
getmək olmur, biləsən,
yatmaq olmur sən sevdiyin
bu evin otağında...

tavanı qartmaq bağlamış
bu evin
əlim çatsa, yazmaq olar divarına:
"hanı sənin qadının?"

bu küçəni ən çox, bil ki,
qadınsız sən qoymusan,
sən qoymusan üç uşağı
belə əsir əllərdə...

it günündə yaşamaq var,
bəlkə, duymuş olarsan,
biz də sənintək yatırıq,
yalnız sağ çiyni üstə...

tayfamızda qadınsız
dörd kişi var, biləsən:
babam, atam, qardaşım
və bir də bax elə mən...

sən olmayan evə də
getmək olmur, biləsən...
yatmaq olmur sən sevdiyin
bu evin otağında...

## BİZİM UŞAQLIQ XATİRƏLƏRİMİZ

İçimizdə o qədər böyümək həvəsi var idi,
həmişə böyük adamların əyninə paltar alırdıq,
evdə deyirdilər ki, gələn il də geyərsiz...

Əynimizdəki köynəklərin qolları qısaldıqca
biz də böyüyürdük,
bir az da ömrümüz qısalırdı, köynək qolları kimi.

nə yaxşı həftə sonu var idi,
dəyişəyi olmayan paltarları yumaq üçün...

Yazıq anamın dırnaqları su çəkmişdi
paltar yumaqdan,
bir də palçığa bələdiyimiz "daroşqa"ların üstündə
rezin çəkməylə "şaqat" eləyirdi yazıq qadın

İndi o "daroşqa"ların üstündə
o qədər iz var ki:
bizim uşaqlıq xatirələrimiz və bir də anamın ayaq
izləri...

## TOYUMU GÖZLƏMƏDİ ANAM

Anamın məzarı başında susduqca
qınayıram özümü:
Niyə ağlaya bilmirəm?
Yoxluğuna sonuncu dəfə
xalam mənə elçi gedəndə doyunca ağladım anamın,
sonra bir qız səsi gəldi
ovundurdu məni

Anam böyüməyimizi gözləyib sonra öldü,
fikirləşdi ki, qollarımın gücü çatsın
onu məzara qoymağa,
fikirləşdi ki, tabutun ağırlığını
hiss etsin çiyinlərim...

Toyumu gözləmədi anam,
deyəsən, bilirdi gec evlənəcəyimi,
heç nişanıma da qalmadı...

O gün, bu gün
"anam xəstədi" – deyən adamlara elə acıyıram ki,
bax elə məni "anam xəstədi" – deyib aldadan
dilənçiyə də sonuncu qəpiyimi verirəm...

## HEÇ KİMİN GEDİŞİNƏ AĞLAYA BİLMƏYƏCƏM

Bütün qadınlar çıxıb getsin,
anamdan sonra
heç kimin gedişinə ağlaya bilməyəcəm, onsuz da
bütün qadınların çıxıb getməyi imiş
anamın getməyi...

Daha heç kimin qayıtmağı
məni sevindirə bilməz
uşaqkən anamın arxasınca necə qaçıb yıxılmışdımsa,
öləndə də arxasınca qaçıb yıxıldım,
bu dəfə qaldırıb tabutunu qoydular çiynimə...

Qadınları ölmüş küçəmizdə
daha maraqsız oldu yaşamaq,
baş götürüb uzaqlara getmək
ən böyük təsəllim oldu.
O vaxtdan kəndimizə qayıtmaq üçün
hələ də anamdan xəbər gözləyirəm...

## SƏNİ SAĞALTMAĞA SÖZ VERDİM...

Gecə yağış yağır,
gecə qar yağır,
yandım, öz hisslərim tüstümə çıxdı.
Haçan yağış yağır, elə bilirəm,
sənə soyuq olur, üstün açıqdı.

Qəbrin dünya boyda beşik yeridir,
kor olur gözlərim, səninçün yanır.
Gecə yağış yağır sənin şəklinə,
qurumuş kirpiyin belə islanır.

İndi daş, indi də torpaqsan, ana,
səni görmək üçün darıxmaq olur.
Səni görmək üçün uzanır bu vaxt,
bəs niyə bu qədər canım sağ olur?..

Qarşında mən axı söz vermişdim, söz,
necoldun, sən getdin hara, bilmədim.
Səni sağaltmağa söz verdim, amma
sözümün üstündə dura bilmədim...

## SONUNCU DƏFƏ

heç ağlıma da gəlməzdi ki,
bu qədər evimizdən uzaqda
yumarsan gözlərini, ana...

heç vaxt səni bu qədər
təkbaşına qucağıma götürməmişdim-
saatımın kəməri
qolumdan qırılıb məzarına düşəndə
hiss etdim ki,
artıq bütün saatlar dayanmalıdır...

o gecə səni nənələrimə-babalarıma tapşırmışdım,
amma hönkürən bacımı ovuda bilmirdim,
ayaqqabın bizdə qalıb, bilirsən,
indi də saxlayıram,
amma paltarların
heç kimə sənin kimi gözəl yaraşmadı...

sən ölən gün söykənib ağladığım,
evimizin böyründə olan
təndirini deyirəm,
heç kim çörək yapmadı,
uçub, indi bircə yağışa bəndi...

Sonuncu dəfə
xalam mənə elçi gedəndə doyunca ağladım...
sən öləndən sonra hərəmiz bir tərəfə getdik
atam Rusiyaya, bacıma evinə, mən isə Bakıya qayıtdım...

## ANAMIN TƏNDİRİ...

anamın təndirini qoruya bilmədik:
evimizin divarları kimi
uçdu təndirinin divarları...
qadınsız evi kimi
qadınsız təndiri də
dözmədi anamın yoxluğuna...

üstünü örtüb yağışdan qoruduq,
içində tonqal qaladıq,
sığal çəkdik, amma
anamın təndirini qoruya bilmədik-
uçdu, yerlə bir oldu...

yadımdadı anam öləndə
ən çox o təndirin başında ağlamışdım...
anamdan sonra heç bir qadın
o təndirə çörək yapmadı...
anamın əlləri o təndirə dəymədiyi üçün
təndiri yerə, əlləri göyə uçdu...

təndiri atama tapşırıb getdik,
qayıdanda gördük təndir əyilib,
başını dizinə qoyub...
qonşular dedi:
– Ay oğul, kişiyə təndir tapşırarlar?!

***Sənin getdiyin günü Qurtuluş bayramı kimi qeyd edirəm...***

## ŞAİRLƏR HƏLƏM-HƏLƏM ADAM UNUTMAZLAR...

Səndən sonra çox şey oldu,
biləsən.
Tozlu döşəmə üzərindəki ayaq izlərim
səhranı xatırladar hardasa.

O vaxtdan paltarlarımı da
yarıtəmiz geyirəm.
Dünyanın ən yaxşı arzuları idi
mənim sənin kimi paltar yumağım –
sənin mənim kimi şeir yazmağın.

Səndən sonra çox şey oldu,
biləsən,
hər şey kimsəsizləşdi,
hər şey susdu özündə...

Səndən sonra
nə çörəyə gəldilər,
nə çaya, nə də qəndə
bu həyətə...

Şairlər hələm-hələm
adam unutmazlar, biləsən.
O vaxtdan səni unutmamağımın
davası gedir evimizdə.

## SƏNİN GETDİYİN GÜN

Sənin getdiyin günü
"Qurtuluş bayramı" kimi qeyd edirəm.

O vaxtdan
bu günə kimi həmən gün
köynəklərini yelləyərəm havada.

Qalaq-qalaq yığılmış
bulaşıq qabları da,
til vurulmuş
kirli paltarları da
həmin gün yuyaram.

Bu, ömrü boyu belə olub,
qadınsız evlərə sükut çökər həmişə.
Bircə həmin gün,
"Qurtuluş bayramı" günü
sükutu pozular evimizin.

## EVDƏ HEÇ KİM YOXDU

Sənsiz evimdə
yatağımın üz örtüyü olmaz.

Narahat yatıram gecələr,
adına sarılaram hər gecə.

İşə gedəndə
işığı yanılı qoyaram,
guya evdə kimsə var deyə.

Sən evdə yoxsansa,
demək, evdə heç kim yoxdu,
qalan kim nə deyirsə,
boş şeydi.

Mənim evdə olmağım
kimsənin evdə olması deyil ki,
mən döyülən qapını açmaq üçünəm sadəcə.

## SƏN ALLAH, QAYIDIB GƏLMƏ

Eşitdim ki, yerin pisdi,
gileylisən evində;
gecələri gec yatırsan,
sabah tezdən durursan,
məni guya sevməmisən,
məni guya unudursan.

Hərdən pəncərəni aç,
dəcəl balanı səslə,
mən də görüm keçəndə
səsin dəyişməyib ki?!
sən Allah, o körpəndən
muğayat ol həyətdə,
düşər quyuya, boğular,
yerin daha pis olar.

Birdən dükana gedərsən
evə nəsə almağa,
sən Allah, adını demə
nisyə dəftəri üçün;
o, avara ərinin adını de, yazsınlar,
onsuz da hamı bilir, məcbur veriblər səni.

Sən Allah, qayıdıb gəlmə,
sən Allah, döz birtəhər.
heç olmasa yalandan da olsa, gülümsə,
alnını düyünləmə,
yola vermirlər səni,
vermirlərsə, cəhənnəmə,
ortalıqda oğulun var, qızın var;
uşağına bağışla...

sən Allah, qayıdıb gəlmə,
sən Allah, məni bağışla.

## SƏNİN YOXLUĞUN
## ÇOX KÖRPƏDİ

Dəyişdiyimi bilirəm,
qəddar adamlar sayağı
zəhrimar yağır üzümdən.

sənə adi gəldi
ağrılarım,
sən duymadın səsimi
ağrılarım  sızıldayanda.

yoxluğun heç boşluq yaratmadı
həyatımda,
bilməliydin
anasın itirmiş adamlar üçün
bütün itkilərin boş şey olduğunu...

Məsələn,
müharibə görmüş adamın
küçə davasına
adi baxması kimi...
sənin gedişin çox səssizdi,
anam gedəndə
daha çox adam vardı
həyətimizdə.

Sənin yoxluğun çox körpədi,
günahdı məzar daşı qoymaq
yolunun üstə.

## HƏR GÜN RASTLAŞIRIQ

Sevgiyə tamarzı ürəklərimiz
əlini açıb dua etdi Allaha
sevmək üçün.

Sən dünyaya
ağrımaq üçün gəlmisən elə bil.
Allah ikimizi də böyük yaratdı-
Əstəğfürullah-

səni evin böyük qızı,
məni isə böyük oğlu kimi.

Üzü günəşə durub adamlar,
üzü qibləyə kəsirlər
sevgilərin başını.
mən də üzü anamın
qəbrinə dayanmışam,
ağlamaq da gəlmir içimdən,
susmuşam.

Qadın gedişləriylə doludu evimiz:
anam, bacım, sən...
Bir bilsən, qadınsız evlərdə
kişilərin təkliyi nə boyda olur.

İndi metro
eskalatorlarında rastlaşırıq,
salam veririk,
Necəsən? – deməyə vaxt çatmır.

Sağollaşmağa qolumuz da qalxmır,
sağollaşmaq gəlmir içimdən...

hər gün rastlaşarıq,
hər dəfəsində
sən məni sevmədiyin üçün ağlayırsan,
mən də səni unutmadığım üçün.

## BİR GÜN OYANIB GÖRDÜM Kİ

Mən bilmirəm necə olur adamları unutmaq,
necə olur qadını ölmüş küçədə sevinmək,
axı xatirimdəsən, necə deyim unutmuşam,
necə deyim aldatmışam dünən səni gizlicə.

Qazımız da şam kimidi, gözün aydın,
heç qabaqlar bu da yoxdu, cəhənnəmə,
yollarımız it günündədi, neynək,
bu qışı da yola verək birtəhər.

Anam qədər uzaqdasan, uzaqda
çağırsam, eşitməyəcəksən,
ağlasam, görməyəcəksən...

atam kimi zəhləm getmiş xatirən
hər gün danışır mənimlə zəhər-zəhər,
bir gün oyanıb gördüm ki
anam kimi sən də yoxsan səhər-səhər...

## ÜNVANINI BİLMİRƏM

Qar yağır.
Sobanın istisinə qısılıb
anamın ölmədən öncə
bişirdiyi mürəbbəylə çay içirəm.

və sən getmədən öncə
birlikdə çəkdirdiyimiz şəkillərə
baxdıqca
düşünürəm ki, heç kim əbədi deyil...

soyuqda isinmək üçün
bütün şəkillərimizin sən tərəfini yandırmışam,
ünvanını bilmirəm,
yoxsa külünü qapınıza göndərərdim...

## YORĞANDAN QADIN DÜZƏLTMƏK

Məftildən maşın düzəldirdik uşaqlıqda.
Böyüdük, yorğandan qadın düzəltdik,
belə öyrəndik
başsız qadın bədəninə sarılmağı...

Sonra anamızı qoyduq qəbrə
qollarımızda
və belə hiss etdik
qucağımızdakı qadın ağırlığını...

Adamlara məzar daşısız ağlamaq
daha asandı, biləsən.

O, vaxtdan
yorğandan düzəltdiyim
başsız bədəninə sarılıb yatıram
hər gecə...

Getməklərin ən yaxşısını sən etdin-
xəstələnməklə...
Xəstəyəm, ömrümə bir gün qalıb,
əlac yoxdu filan...

Canından bezib
ölümünə sevinənlər kimi
mən də sevgidən bezib, ayrılığa sevindim...

Məndən narahat olma,
anamdan sonra
heç kimin gedişinə ağlaya bilmirəm.

## EVİN AÇARI

Səndən sonra
bu küçə necə qadınsız qalıbsa,
gedib bu küçəni mən də kişisiz qoyacam.

Bu yayın istisində
nəyimi götürüm gedim?!
pencəyimi?
onu hamı götürüb gedib,
mən nəsə başqa bir şey götürmək istəyirəm,
məsələn: səninlə olan bir-iki rəsmimi

Bu hasarı bizimçün hörmüşdülər,
Boylana-boylana böyüdük,
heç özümüz də bilmədən
bir daşını da qopardıq,
hər dəfə yazdığımız məktubları
o daşın altında gizlədirdik bir-birimizə.

Gedirəm, qayıtmayacam...
O daşın altında gizlətmişəm
evin açarını.
Qayıtsan, götürərsən bayırda qalmamaq üçün...

***

Küçənizin tininə belə yaz...
filanıncı illərdə
gənc şair Vasif bu küçədə eşq yaşayıb

Şəklimin altına bir gül dəstəsi qoy,
sonra hara gedirsən; get,
heç olmasa adım yaşasın,
heç olmasa küçənizin sevgisi ölməsin...

## ÖMRÜM UZUN OLACAQ

O qədər darıxmışam ki,
sevdiyi qıza qovuşmaq üçün
təqvim qaralayan əsgər kimiyəm.

Heç nə demirəm,
bir dəfə gələsən,
özü də bir dəfə,
yeyib, qabını sapa düzüb
qapı zəngi düzəltdiyim "kilki zəngi"nə çıxam

və görəm ki, gəlmisən,
hiss edəm ki, qazanım qaynayacaq,
evim təmiz olacaq,
daha deyinməyəcəm
boğazı qartmaq bağlamış köynəklərimi yumaqdan,

hiss edəm ki, yaşayacam,
ömrüm uzun olacaq....

## SİNƏM QADIN BAŞI ÜÇÜN AĞRIYIR

Köynəyimi geyən gündən
içimə hopmusan,
oturub qurulandığın
məhrəbanı yuyuram əllərimdə.

Bilirəm qadınlığını
mənlə görüşəndə hiss etdin,
köynəyimi elə düyməmələmisən ki,
qollarım da qalxmır açmağa.

O qədər tənhayam ki,
sinəm bir qadın başı üçün ağrıyır indi...

Biz nə dost olduq,
nə də sevgili;
təsadüfi görüşlərin xatirəsi qaldı-
sənin başında,
mənimsə sinəmdə...

***

Heç kimi unutmamışam,
yaddaşımın küncündə
o qədər qadın var ki,
hərəsi bir günahıma görə
uşaq doğur başqasından.

***

Nə desən, haqlısan,
oturub min kilometr
məndən uzaq olan birini
düşünməyimin
bədənimin hansı orqanına
xeyri var,  bilmirəm.

***

Heçmi istəmədin
arxadan mənə sarılıb
güzgüdə əksini görməyimi?..

## QOLLARI ARXASINA QANDALLANMIŞ MƏHBUS KİMİYƏM

Məni görmədiyin gecələrdə
nə qədər ağlamısansa,
hamısı susuzluğumu yatırdıb.

Şəkillərimə baxdıqca
daha çox
gözümə görünmüsən.

Qolları arxasında qandallanmış
məhbus kimiyəm,

sən gül gözləyirsən,
mən isə
əlvida demək üçün əyilmişəm
qulağına pıçıldamağa...

## DİVARDA BİR ŞƏKİL YERİ SAXLA

Sən o qədər sıx sarılmalıydın ki mənə,
arxaya boylanmağa
boynum dönməməliydi,
yoxsa keçmişə baxdıqca
daha çox ağrıyıram...

Həyatımdan gedən qadınları düşündükcə
ən çox anamı xatırlayıram-
bu dünyada gün görməyə, anamı...

Hər şey yarımçıqdı ömrümdə:
gülməyim də, yaşamağım da...
Sən hardasa
yarımçıqları doldurmaq üçünsən, elə bilirdim...

Yollar dəmir barmaqlıqlar kimidi gözlərimin önündə,
hər dəfə baxdıqca kimisə görmək istəyirəm.

divarda bir şəkil yeri saxla,
səni xatırladıqca gözlərinə görünüm,
yoxsa qorxuram üzüm yadından çıxa...

## BİLƏKLƏRİM DİNCƏLİB

Səhərlər güzgüyə yox,
sənə baxıb çıxıram evdən,
axşamlar da evə
sənə görə tələsirəm.

Biləklərim elə dincəlib
kirli paltarlarımdan
geriyə baxdıqca
daha çox acı çəkdiyimin
fərqindəyəm.

Donmuş ayaqlarımı
ayağının altında
donmuş əllərimi
əllərinin içində
isitməkdi varlığın.

heç nə demirəm...
Bircə gəlişinə qərar verdiyinçün
çox sağ ol!

## SƏNDƏN ÖNCƏ DARIXDIĞIM BİR QADIN VAR

Səni sevən gündən
hamı unutdu məni,
məni sevənlər
təkcə mənə yox,
sənə də xoşbəxtlik dilədilər.

Ömür dediyin
bu yaşamağın içində
o qədər yorğunam ki,
içimdə neçə ilin xatirəsi var...

Bir də sənə bir söz deyim,
səndən öncə
darıxdığım bir qadın var-
məni anasız qoyub...

***

ömrü boyu görüşdüyüm
qadınların adlarını
sonunda bir qadına sayıb, utandım,
barmaqlarım bitəndən sonra üç nöqtə qoyub
keçdim üstündən...

***

Daha heç kim
və heç nəyim yoxdu,
bircə yeni doğulacaq
oğluma ad axtarmaqdan başqa.

## SƏNİ BU ŞƏHƏRDƏ TAPMAQ ÇƏTİNDİ

Mən ən çox anamın şəklini siləndə
təmiz şüşə sildiyimə görə sevinirəm,
sən bilmirsən axı,
sevdiyim qadını ən çox anam olsun deyə, oxşayıram,
oxşayıram ki, anam yuxuma girsin,
oxşayıram ki, qadınsız qalmış
təndirinə çörək yapsın...

Mən ən çox kəndimizə
anamın məzarına görə gedirəm,
gedirəm ki, anam sevinsin,
sən də sevin, qadın,
sevin ki, səni anam kimi
sevdim.

Atamın uzaqlarda olması,
bəlkə də
anamın ən böyük ayrılığıdı;
başqa dildə danışan qadınlara qısqanır onu.
Başqa dizlərdə qatır atam
qadınsızlığının başını

İndi bir uşaq adı tapmaq qədər çətindi
səni bu şəhərdə tapmaq...
Nə olar, qayıt
qadınsız kişilərin tək qaldığı evə.

***

Sənin üçün çox uzaqlarda-
bir kəndin, bir qayanın başında.
bir qadının göz yaşında
darıxmaq istəyirəm.

***

Heç olmasa bir dəfə də olsun
qarşıma çıx,
yoxsa mən
belə bərkiyib gedirəm.

***

Uşaq yolunu gözləyən qadın kimiyəm,
kaş bir dəfə görə biləm
o uşaq barmaqlarını

***

Metro keçidindən keçən uşaq kimi
əyilib ömrün altından keçirəm
qocalmamaq üçün...

## NİFRƏT ETMƏSƏM...

Mən səni sevməkdən başqa
heç nəylə sərxoş olmadım,
dodaqlarına toxunduqca
daha çox udqunuram,
gəl, dodaqlarımızı
şərab badəsi kimi bir-birinə vuraq.

bu şəhərin balaca olduğuna inanıb
gəzirəm  küçələrini,
hardasa bir metro keçidində
səni keçirmək
və ya ağır çantana kömək etmək qədər
möhtacam sənə.

Siqaretimi söndürdüyüm
külqabı kimi
nifrət edirəm ayrıldığımız yerə,
baxıram ki, səni sevdiyim qədər
nifrət etməsəm,
unutmaq çətin olacaq...

## EVİN KİÇİYİ OLAN OĞLANLAR

Bəxti gətirmədi
kəndimizin evin kiçiyi olan
oğlanlarının.

Bakıdakı ilk məhəbbətlərini
kənddə yaşayan ata-analarına,
ata evinə qurban verdilər.

Buna görə
şəhərdə ilk məhəbbəti
daşa dəyən qızların,
kənddə isə oğlanların sayı çoxaldı.

Bəlkə də, bəxtim onda gətirdi ki,
evin kiçik oğlu olmadım,
amma evin böyük oğlu olsam da,
yenə şəhərdəki sevdiyimə qovuşmadım...

## İÇİMDƏKİ QADIN

İçimdəki qadın!
Hər gün sənə görə davadı evimizdə,
evimdəki qadın qısqanır səni.

Bəs necə gizlənmisən içimdə,
hər dəfə özünü ələ verirsən?..
Artıq anasan, qızını ərə verirsən,
amma mən hələ də səni sevirəm.

Evimdəki qadına tutuluram
adını dodaqlarımda pıçıldayanda,
filmə baxıb ağlayanda,
sənin istədiyini ona almayanda-
evimdə davadı.

Axı o da qadındı,
geyinirəm, yeyirəm,
məni sevir,
mən də evimdəki qadını sevirəm,
içimdəki qadın!

## MÜRGÜLƏYƏN UŞAĞIN YUXUSU

Səninçün nigaran olmaq
torpaq altda qalan
anam üçün darıxmaq kimidir.

Başını çiynimə qoyub
çiçək qoxlamağına bənzəyir
indi çiynimdə barmağını somurub
mürgüləyən uşağın yuxusu.

Axı əllərimin qaşınmasına görə
daha çox darıxıram,
öpüb alnıma qoyanda
elə bilirlər ki, pul qazanacam.
Mənsə elə bilirəm ki,
sən gələcəksən...

Şəklinə baxmaq
köhnə qəbri ziyarət etmək kimidi.
Şəklinin üzü soyuqdu
torpağın üzü kimi...

## ƏLİMİN YERİ SAĞALSA

Mən elə ölsəm, yaxşıdı,
demə, fürsət düşüb əlinə.
Mən olmasam, kim yollanar
axı ölümün yerinə?

Səni işdi vuran olsa, ağlama,
çalış ki, çox getməyək dərinə.
Gəl bir müddət yas saxla
əlimin yerinə.

Əlimin yeri sağalsa, sevinmə,
ürəyinin yara yerində,
iş-gücün ara yerində
çağırsam səni,
acıla məni, qadın,
acıla zülmün yerinə...

*Sənin gedişinə yeyib-içirəm…*

## TƏK QALMIŞ ADAMAM Kİ...

Bu boyda ürəyə olmaz deyirəm,
deyirəm, bəlkə də, bir pasdan çıxa.
Sənin gedişinə yeyib-içirəm,
tək qalmış adamam
ki, yasdan çıxam.

Azalar gəliş də, gediş də belə,
hamı mənə deyər, axı o yoxdu.
Mən də unudaram səni, bilirsən,
bilirsən, torpağın üzü soyuqdu.

Daha bu daş ömrə söykənməz başım,
nə acıq verirsən, mənim nəyimə?
İndi bumbuz əlim torpaq götürər,
götürüb tullayar öz kürəyimə.

Səndən nə cürəsə mən qaçam gərək,
bu qara günümdən mən ağa düşəm.
Yelləncək asmışam ağac altında,
atıram özümü, uzağa düşəm.

## SƏNDƏN NİGARANAM TİKAN ÜSTƏYƏM

Hara tələsirsən belə tez gedib,
belə göründümü yad buram sənə?
Hər gün əllərimi göyə açıram,
tez gəlib çatacaq bir duam sənə.

Elə yorğunam ki, canı xəstəyəm,
yada əsir düşən belə dəstəyəm.
Səndən nigaranam, tikan üstəyəm,
gör bir neçə illik mən qulam sənə.

Haqqı var boynumda səni sevməyin,
Ürəkdən sevməyin, dəli sevməyin.
Elə möcüzəymiş məni sevməyin,
İnana bilmirdim tək qalam sənə.

## QATARDA YOL GEDƏN KOR SƏRNİŞİNƏM

Əllərin buzdumu, belə soyuqdu,
donub qollarında  buza qalıb?
Deyirlər, sabah da günəş çıxacaq,
hamının ümidi ulduza qalıb.

Nədir cəriməsi sənə baxmağın,
adam da qəbrinə aparır ağın.
Suları üstündən gedən torpağın
indi hər tərəfi qır duza qalıb.

Bir ocaq da yoxdu, dondum, isinəm,
çalın-çarpaz dağdı dağ görən sinəm.
Qatarda yol gedən kor sərnişinəm,
ümidim bircə yol o qıza qalıb.

## AÇILSIN SƏHƏRLƏR AZAN SƏSİNƏ

Qəlbimə toxunmur,
xətrimə dəymir,
qayıdam bu yolu, mən düşüb gedəm.
Axı ayrılıq da gəlmir içimdən,
sarılıb qoynuna, öpüşüb, gedəm.

Varsan, varlığın da hər şeyə çatır,
hər şeyə necəsə mız qoymaq kimi.
Hara qısqanıram, getmə, deyirəm,
adının üstünə cız qoymaq kimi.

Gülüm, nə gözəldi geydiyin donun,
yaraşmaz, bilirəm, heç özgəsinə.
Bir az da, bir az da yuban yanımda,
açılsın səhərlər azan səsinə.

## İNDİ ELƏ RAHATAM Kİ UZAQDA

Vağzaldakı o qız kimi sən də dillən,
de ki, indi yola düşür avtobus.
De ki, indi pəncərədən boylanıb,
sənin üçün əl etməyin vaxtıdı.

Yoxluğunla uzaqdısa əllərin,
qayıtsan da, yollarını qısaltmaz
Sənin dərdin elə dərddi, əzizim,
başqa heç nə məni belə qocaltmaz.

Az maraqlan, mən neylədim, nə oldum,
kimi gördüm, kimi sevdim, əminsən?
İndi elə rahatam ki uzaqda,
heç bir qadın deyə bilmir, mənimsən.

## KİMİ UNUDASAN, ÖLƏ BAŞINDA

Hələ yaşanmamış gündü yoxluğun,
dua et, içimdə nifrət olmaya.
Kimi unudasan, ölə başında,
kimdən danışasan, qeybət olmaya.

Yaxşı ki, yaxından bilmədin kiməm,
qəddaram, yüz sevən canı yıxanam.
Bir şey umdunsa da, heyif bəxtinə,
əliaçıq deyiləm, canı çıxanam.

Sən məni hamıya düşmən eylədin,
çağırdın mənimçün qarğış etməyə.
Durub qollarımı göyə açmışam
gedən biri üçün alqış etməyə.

## BƏXTİM DƏ GƏTİRMİR...

Can çıxır hər dəfə can sağaltmağa,
elə qismətimdi, birtəhər olum.
Dünyaya o qədər kasıb gəlmişəm,
bəxtim də gətirmir, bəxtəvər olum.

Başımda nə boyda fikir var, gicəm,
elə bacarmıram doyunca içəm.
Səni çox gözlədim, çıx get, ay gecəm,
gəlmişəm bu sabah mən səhər olum.

İndi bu təklik də yetməz dadıma,
əlçatmaz olmuşam öz muradıma.
Sual göndərirsən hələ adıma,
bilmirsən mən sənsiz nə təhər olum.

## BAX, İNDİ TÜSTÜM DƏ TƏPƏMDƏN...

Eh, sən də bilmirsən, indi neynirəm,
kiminçün özümü bada vermişəm.
Darıxma, mənimçün unudulmadın,
adına nə boyda ada vermişəm.

Saat kəfkiridi o yüyrüyün də,
ürək döyüntünlə yellənib gedər.
Kirli paltarlartək xatirələr də,
fikrimin küncündə tillənib gedər

Gör hardan-haraya uzandı yollar,
hamısı mənimçün o dəmdən çıxır.
Sən ocaq qaladın isinmək üçün,
bax, indi tüstüm də təpəmdən çıxır.

## MƏN SİZİ SEVƏRKƏN BƏYƏNMƏYƏNDƏ

Qapı süpürməklər əyər belinizi,
vallah, inciməyin bunu deyəndə.
Bilmirdim axrınız belə olacaq
mən sizi sevərkən bəyənməyəndə.

Bu kənd o qədərmi yormuşdu sizi,
bu kənddən o qədər bezikmişdiniz.
Siz axı bilmirdiz Bakı deyəndə
Bakıya getməyə gecikmişdiniz.

Yaman darıxdırdı sözünüz məni,
Sinəmdə böyüdü onda bu dərdim.
Mən axı bilmirdim, qismət beləymiş,
Sonradan özüm də Bakıya gəldim.

Eh! Baxın gözümə məni görəndə,
sizlər yaşadırsız indi kəndimi.
Yüz Bakı versələr, onun yerinə
Heç vaxt dəyişmərəm doğma kəndimi.

## GÖRƏSƏN, BU QADIN ŞƏKLİNİ MƏNƏ

Daha bu yorğunluq çıxmaz canımdan,
daha ağrılarım bir yola gəlməz.
Açsam əllərimi gül ləçəyitək,
bükülüb sinəmdə bir sola gəlməz

Görəm ki, uzaqda o gələn sənsən,
əlimi uzadıb sənə, çığıram.
Məktub qaynadıram indi evimdə,
üstündən mürəkkəb kəfin yığıram.

Axı nə zülmdü, verirsən mənə,
kim versə bu zülmü, bəlkə dözməzdim,
səni gözləməyim qısa yol olsa,
vallah, gözləməyə bir söz deməzdim.

Yaxşı, sən deyəndi, nə bilirsənsə,
çevrilib yollara qoy baxım onçün,
görəsən, bu qadın şəklini mənə
niyə göndərir ki, darıxım onçün.

## SƏNİN SAĞLIĞINA İÇİRƏM BUNU

Özüm də sevgimtək daşa dəymişəm,
tək azıb qalmışam indi dalanda.
O qədər ümidsiz, çarəsizəm ki,
mənə doğru gələr hər bir yalan da.

Yoxamsa, de, kimdən mən artığam ki,
sənin günahın yox, sən neyləyəsən?
O qədər dərdi var indi hamının,
yük olar məni də dərd eyləyəsən.

İndi imdad üçün təsəlli yoxdu,
kimi siqar çəkir, kim içki içir.
Grmürsən, hər dəfə sənin yoxluğun
gizlincə qayıdıb içimdən keçir...

Bilmirsən bu qədər sərxoşam axı,
mənə qınağını sərt eyləyəsən.
Sənin sağlığına içirəm bunu,
birdən xəstələnib pərt eyləyərsən.

**Allah, öldüyüm günü de yasıma adam çağırım.**

## SƏN ƏN BÖYÜK TƏSƏLLİMSƏN

Sən ən böyük təsəllimsən,
gəlmisən məni sevməyə.
Axı nə yaşın vardı
mənimlə dərd çəkməyə.

Bir qucaqlıqdı boyun,
saçın nə gözəl ətirdi.
Təkliyimdən gileyləndim,
Allahım səni gətirdi.

Belədi dünyanın işi,
hönkürüb ağlamaq olur.
Kimisə itirəndə
kimisə qucaqlamaq olur.

## BİRCƏ SƏN OL YANIMDA

Sən heç kimə oxşama,
necəsən, elə də qal.
Üşüyürəm soyuqda,
mənə bir cüt əlcək al.

Heç kim bilməz bu zülmü,
ömrüm sənə sürünür.
Evdə hər şeydən yaxşı
sənin yerin görünür.

Nə ad qoysun adamlar
mənim kimi axmağa?
Bir cüt göz saxla mənə,
darıxanda baxmağa...

Qoyma qoltuqda qalım,
kiməsə möhtac olum.
Bircə sən ol yanımda,
razıyam ki, ac olum.

## CANIMA BAĞLI ADAMLAR

əvvəl-əvvəl sevdiklərim
sonra-sonra unuduldular
canıma bağlı adamlar
canımdan da yoruldular

yavaş-yavaş gəldi keçdi
ağrılar da, sızaqlar da
unutduğum adamlar da
yoruldular uzaqlarda

indi-indi görürəm ki
yollar adamlar köçündə
mən unutmuşam sandığım
yaddaşımın bir küncündə
yıxılıb qalıb eləcə
qalıb qalanlar kimi
qalıb unudulanlar kimi

## ALLAH, ÖLDÜYÜM GÜNÜ DE

Yaşamaq həvəsiylə,
doğulmuşuq dünyaya.
Bilməm hardan düşmüşük,
biz hardan bu sevdaya?

Qaçaqaçdadı adamlar,
Kimlərsə hardasa yatır.
Adamlar pərən – pərəndi,
hərə öz başını qatır.

Tozun içindədi küçə,
küçə elə gündədi ki.
Gündə milyon adam ölür,
mənim ölməyim nədir ki.

Dayanın, nolar, dayanın,
yerimə başqasın asın.
Nənəm deyərdi, ömrümdən kəs,
Allah, balam yaşasın.

Deyəsən, çox çəkməyəcək
canımdakı bu ağrım.
Allah, öldüyüm günü de,
yasıma adam çağırım.

## BURDA DA GECƏ OLAR

Mən ölərəm, ölərəm,
başlarsan ağlamağa.
diriykən tutduğun əllərimdən
ölüykən qorxarsan tutmağa.

qəbrim üstə də
tək gəlməzsən,
üşənərsən, qorxarsan.
gözlədiyim kimsə var,
gözlədiyim sən varsan...

kiminin adamı çox,
kiminin adamı az gələr,
burda nə işıq yanar,
burda nə də ki qaz gələr.

burda da gecə olar,
burda da səhər səhərdi,
sənin qəribə baxdığın
bura da bir şəhərdi...

## SÜMSÜK İTTƏK...

yorğun gecədən keçmiş
bu sərsəri, bu axmaq.
bilirsən mənlik deyil
saç-saqqalı uzatmaq.

ev üçün darıxmıram,
axı yoxdu bir kəsim;
sən də evdə deyilsən,
hər gün evə tələsim.

həyətdə paltarlarım
şaxta düşsə, qac olur,
qadınsız kişilər də
sümsük ittək, ac olur.

sən dediyin təkliyin
adına nə deyirlər,
kişiyə hamı dəli,
qadına nə deyirlər?!

***

sən də at get məni,
atam kimi tək qalım,
gedim soruşum
görüm, anamçün necə ağlayır...

***

əvvəl tanımırdıq bir-birimizi,
tanış olub tanıdıq,
indi ayrılırıq
yenə tanımamaq üçün...

***

yenə tezdən
qatmışam qabağıma
mal-qoyunu.
onlar ot yeyir,
mən isə
anamın məzarı yanında
pendir-çörək...

## BİLİRƏM, KİMİNSƏ VAR

gənc idin, gözəl idin,
dedim, elə qalasan,
o vaxt bir tənha qızdın,
indi isə anasan.

biz olan küçələrin
kəsiblər, başı qalıb,
ovcumuzda darıxan
bircə çay daşı qalıb.

necə deyim çıx yola,
başıma kül ələ sən
bilirəm, kiminsə var,
kimsə qoymur gələsən...

## ALLAH HAQQI, DARIXMARAM

Səndən uzaq düşməyin
başqa cürdü ləzzəti,
başqa cürdü gözlərimdə
mən baxdığım uzaqlar.

İndi səni görmüş olsam,
Allah haqqı, darıxmaram.
Mən səni uşaq ağlıyla
Sevirəmmiş qabaqlar.

Hərəyə bir ömrümüz var,
çıxaq gedək, yaşayaq.
Bəlkə, mənim gözlərimdə
çətin olar unutmaq.

İndi səni görmüş olsam,
Allah haqqı, darıxmaram,
unutmaram mənə baxan,
mən sevdiyim gözlərini.

## ÇIX GET, DÜKANA DÖN

çıx get, uşağını saxla,
mən də başımı saxlayım.
sən başında yaylığını,
mənsə daşımı saxlayım.

qollarını çox geniş aç
sənə qaçan oğul-qıza.
hamı yatsın, məni düşün,
yatağında rahat uzan.

neynirdin ki o üzüyü,
taxırsan e duran kimi...
ürəyinə də dolaşıb
səni çalan ilan kimi.

çıx get, dükana dön,
evə bir şey al,
uşaqlar qaçsın qabağına.

## CİNGİLDƏYƏN QULAQLAR

nəfəsini dərməyə
hava da çox istidi,
istidi bir-birinə
hər toxunan qucaqlar.

nə qədər gec qayıtsan,
o qədər yaxşı olar,
o qədər rahatlaşar
cingildəyən qulaqlar.

məndən nə umurdun ki,
sən nə də istəyəsən?
elə bildim dəyişib,
tam başqadı buralar?

## DİNCƏL, XINA YAX ƏLİNƏ

Köksümdən düşər əllərin,
düşər, uzaqlara gedər.
Yarı yoldan dönən gəlin
başqa qucaqlara gedər.

Kimsən, başımı qatırsan
de görüm kimin yerinə?
Sən getdin, heç kim gəlmədi,
dincəl, xına yax əlinə.

Deyim, səni unutmuşam,
deyim, hər şeyi dalınca.
Bir evdə ayrı qalardıq,
bax elə belə olunca.

## RƏNGSİZ ÇAY DƏMLƏYİRƏM

Elə yorğun oluram,
gecənin ətəyindən.
Corabımı asıram
qapımın dəstəyindən.

Su basıb ev-eşiyi,
su dolu küçə gedir.
Şəkillərin divardan
sürüşüb kütə gedir.

Bu zəhrimara qalmış
işıq da ki yanmamış.
Rəngiz çay dəmləyirəm
ağ suyu qaynamamış.

Elə istəyirəm ki,
gəlib məni görəsən.
Pəncərəmin önündən
bu qaranlıq sökülsün...
Üzümə deməsən də,
ürəyində deyəsən:
– Sənə bax bu da azdı,
dincəl, ağzın tökülsün.

## GÖZLƏ MƏNİ SABAH AXŞAM

gözlə məni sabah axşam,
hamı yatanda gələcəm.
siz tərəfdən çıxan günəş
axşam batanda gələcəm.

bu sevginin darıxmağı,
bu sevginin uzağı var,
kənddə sənintək sevdiyim
bir də anam məzarı var.

sən bilmirsən necəyəm mən,
nə edim ki, baş qatmağa?
darıxmıram, söyləyirəm,
öyrəşmişəm aldatmağa.

nə var, elə dilimdədi,
səni görsəm, güləcəyəm,
Allah, Allah, ölüm nədi?
sağ-salamat gələcəyəm,
gözlə məni sabah axşam.

## KÖYNƏYİMİ TƏMİZ SAXLA

bu yol, bu qız, bu daş əlim,
sən də getdin, mənim dəlim,
qalx göyə "yaxşı yol" – söylə,
qalx göyə sağollaş, əlim.

yaxşıydın, inandın mənə,
bunu tək qalanda, bildim,
qoluma uzun deyirdin,
sallanıb, sınanda bildim.

mənəm hər şeyə mız qoyan,
gülümsəyən, sağ oluna,
Allah görüm qüvvət versin
yüyrük yelləyən qoluna.

mənə "sevirəm" söyləyən
o dilini də deyindir,
köynəyimi təmiz saxla,
oğlun böyüsün, geyindir...

## SƏN ELƏ YAXŞISAN Kİ...

Sən elə yaxşısan ki,
mənsə pisin, pisiyəm.
Qadını gözəl olan
mən bəxtəvər kişiyəm.

Bir az gec yazım sənə,
bir az da gec axtarım.
Heç vaxt xətrinə dəymir
mənim yorğun vaxtlarım.

Nə sənə bir kinim var,
nə kimsəyə nifrətim.
Səni çox gözləmişəm,
gecikmiş məhəbbətim.

## DÜŞDÜK ÜSTÜNƏ ALLAHIN

Səndən baş aça bilmədim,
Amma qollarımı açdım.
Sevdim, sevdim səni yaman,
Sonra baş götürüb qaçdım.

Kimə yazıldı qismətin?..
Düşdük üstünə Allahın...
Göz yaşını selə vermə,
Tutar ikimizi ahın.

Necə deyirsən, qoy olsun,
Yağış yağsın, dolu düşsün.
Məndən gedən ayağının
Biz tərəfə yolu düşsün.

## NİYƏ KÖNÜLSÜZ SARILDIN

Bunun adına nə deyək,
sevgi, yoxsa ki darılmaq?
Yoxsa hamıyçün darıxıb,
bir-birimizə sarılmaq?

Sir kimi saxlayaq, yaxşı,
kim bilir mənim olmusan.
Gül kimi sevgilər üçün
bəs niyə qənim olmusan?

Əlin də, üzün də bumbuz,
gecələr yuxum qalmadı.
Niyə könülsüz sarıldın?
canımda qoxun qalmadı.

Yaxşı ki, tez gəldin, yaxşı,
gəldin dərdimi bölməyə.
İşin-gücün qurtarmışdı,
vaxt tapdın məni sevməyə?..

## OLMAZ Kİ ŞƏKLİNİ QOYUM

Hamının dərdi böyükdü,
vay dərdin qanan yerinə.
Ölüm hökmü elə çökür,
ömürün qalan yerinə.

Sınıb belə, qolum düşüb,
ayrılığa yolum düşüb.
Zülümlərin bolu düşüb
ürəyin dolan yerinə.

Ömrə qısa gəldi boyum,
bezim bu ömürdən, doyum.
Olmaz ki şəklini qoyum
sinəmin yanan yerinə?

## MƏN DƏ ELƏ DARIXIRAM

Gözlərim yola dikilir
günlərim daralanda.
Mən də elə darıxıram
gecələr qaş qaralanda.

Hər gün evimdə təmtəkəm,
divarlar üstümə gəlir.
Bəzən olur, təkliyim də
özümün pisimə gəlir.

Gəlir adamlar, düz keçir,
evimin işığı sönmür.
Daha sənin kimi heç kim
dolanıb başıma dönmür.

Vaxtımı verirəm bada,
darıxıb hara gəlirəm?
Günləri paltarım kimi
ağ yuyub, qara sərirəm.

## QARAÇI QIZ, FALIMA BAX

Ömür daş üstə yuxudur,
sönüb, sən bir halına bax.
Bu, sevgidi, nə qoxudu,
hələ sən bir dalına bax.

Yel əsər, keçər ahımdan,
sənə gələn sabahımdan.
Allah keçər günahımdan,
Qaraçı qız, falıma bax.

Ova çıxıb ovladığım,
qoxusunu qoxladığım.
Ləçəklərdən topladığım
şəkər dadan balına bax.

## ÖZÜM YOLA SALIM GET

Bilmirəm ki, kimimsən,
ay yad adam, yad qızı.
Başımdan çıxıb gedib,
tək qoy məntək yalqızı.

Nəyimsən ki, de, nəyim,
canın mənim haramdı?
Səni könülsüz sevmək,
məncə, mənə haramdı.

Bir məktub qədər indi
gözlədiyim deyilsən.
Gecə-gündüz darıxıb
özlədiyim deyilsən.

Ay başına döndüyüm,
ay qadanı alım, get.
Gəl səni ertə ikən
özüm yola salım, get.

## HƏYATIMIN QADINI

bu küləkli şəhərdə
saçların da dağılar,
əllərin də üşüyər
soyuq suda hardasa...

məndən nigaran olma,
öyrəşmişəm şəhərə,
yenə tək qalacaqsan,
çalış, öyrəş səhərə.

harda uzaqda olsan,
görsəm, təksən, yetərəm...
gözlərinin yaşın sil,
mən səndən də betərəm.

sevdiyim şeir kimi
əzbərlədim adını,
sən gəldin, tək qalmadım,
həyatımın qadını.

## DAŞ KİMİDİ KEÇƏN GÜNÜM

Gözümdə yuxu yeri var,
içimdə ahdı illərim.
İsinməyə alovu yox,
tutma, günahdı əllərim.

Daş kimidi keçən günüm,
dünənimdən boyat qalıb.
Sənə gecikmiş bəndəni,
gəl, yuxudan oyat, qalıb.

Nədir səndə bu uzaqlıq,
eşq yolunda gəl sipər ol.
Gəl başını qoy sinəmə,
yum gözünü, bəxtəvər ol.

## ELƏ BİR VAXT GƏLDİN Kİ

elə bir vaxtı gəldin ki,
lap yerinə düşdü
bumbuz idi əllərim,
isindi, əlinə düşdü.

mənim kimsəsiz vaxtım,
günlərimin hər səhər
salamsız vaxtlarıydı,
evimizin qadınsız,
anamsız vaxtlarıydı...

elə bir vaxt gəldin ki,
sanki bildin, necəyəm,
sanki bildin, tək qoyub
gedib məni hər bir kəs.

biri var, biri də yox,
xoş gəlir mənə adın.
səni çox-çox gec sevdim,
niyə bəs qınamadın?

## BU DÜNYAYA DAŞ QOYANIN

dünya insanla doludu,
sanki bir kimsəmiz yoxdu

kim axtarar, kimsə tapmaz,
günlərimiz dən-dən olar.
doğmalar da uzaqlaşar,
bizlər ilə düşmən olar.

yaxşı ki, sağ-salamatıq,
yastığıma baş qoyanım.
atasına rəhmət oxu
bu dünyaya daş qoyanın.

## ÜZÜNÜ GÖRÜB GEDƏRİK

haçandı xəbərim yoxdu
səndən hal-əhval tutmağa.
sonuncu adam sən idin,
yenisi yox unutmağa.

içimdəki bir ah kimi
köks ötürüb alqışla dedim.
etdiyim bir günah kimi
üzr istəyib, bağışla dedim.

vaxt etsən, bir yadına sal,
gələndən bir salam göndər,
saçıma sığal çəkənim,
darıxdığım adam, göndər.

onsuz da yarımçıq ömrü
yaşayıb ölüb gedərik,
gələrsən, sonuncu dəfə
üzünü görüb gedərik...

## SIXILIR TƏK BİLƏNDƏ

bilmirsən sən bu gecə
canımın qorxusunu,
kim alıb aparıb, gedib
gözümün yuxusunu?

bəlkə, bu yastıq özü
sıxılır tək biləndə
bezir, bax, o da məndən
hər dəfə çevriləndə...

nə olar, məni bu cür
qoyub getdin, hə, nə olar,
gecələr görməyən göz
elə özüyçün solar...

yaş gedir bir gecədə,
yaşın üstündən keçir,
mənim alın yazım da
başım üstündən keçir...

## HAMI LAP GETMİŞ KİMİDİ

İndi bu soyuq yataqda
uzanmaq canımı sıxar.
Çox pis dərin yuxudayam,
əlini ver, məni qurtar.

Nə olar, de ki, yaxşıyam,
hər şey əlinin altında.
Mən də ömrümü sürürəm,
sənsiz bu zülmün altında.

Söndür işığı, gəl yataq
donduğum soyuq yataqda.
Hamı lap getmiş kimidi,
qaldığım zülmət otaqda.

Eh! Başın indi, görəsən,
evində nəyə qarışıb...
Küsmüşdü adamın səndən,
bəlkə də, təzə barışıb.

## YÜZ İL KEÇSƏ, TANIYARAM

Əllərini üzüb getdin,
buz olubmu, aldan, aldan.
Necə gəldi bu ağlına,
necə oldu, hardan, hardan?

O gedən qız kimin idi,
son baxış da himin idi.
Bilirəm ki, şirin idi
dodaqların baldan, baldan.

Bilmirsən ki, kimə yaram,
sağalıbmı, indi yaram?
Yüz il keçsə, tanıyaram
üzündəki xaldan, xaldan.

# ESSELƏR

## RUS QADININ PİŞİYİ SEVMƏSİ

Ümumilikdə götürəndə, insanlar öz təkliyini nəylə isə bölüşürlər. Rusiyada tələbə olanda evində kirayə qaldığım bir qadın vardı: adı Lyuba Şerbakova idi. Lyuba xanımın əsli Azərbaycandan idi və ona görə də bizim millətə qarşı içində bağlılıq vardı. O, Gəncə şəhərində uşaq evində böyümüşdü. Ailə qurduqdan sonra Ermənistana köçmüşdü.

Ömrünün sonlarında isə Rusiyaya qayıtmışdı. Buna görə də Lyuba xanım həm Azərbaycan, həm də erməni dilini yaxşı bilirdi. İkiotaqlı evinin bir otağında pişiyi ilə özü olurdu, o birində isə mən yaşayırdım. Əslində, ona verdiyim kirayə pulu da elə çox deyildi. Amma buna baxmayaraq, məni evdən çıxarmağı ağlından belə keçirmirdi. Azdan-çoxdan məni tanıyandan daha çox inanmağa başlamışdı.

Verdiyim kirayə puluna görə yox, ona həyan olmaq üçün məni evində saxlayırdı. Məni evdən çıxarmaq üçün hətta ona böyük məbləğdə kirayə pulu təklif edənlər də olmuşdu. Lyuba xanımın, dediyinə görə, iki oğlu və bir qızı vardı. Onlar da Rusiyanın başqa şəhərlərində yaşayırdılar. Lyuba xanım bütün təkliyini evində saxladığı pişiyi ilə bölüşürdü. Həmişə soruşurdum ki, övladların niyə sənə baş çəkmirlər?! Deyirdi ki, gələcəklər.

Lyuba xanımın evində dörd il yaşadım, amma bu vaxt ərzində heç kim gəlmədi. Tale elə gətirdi ki, mən vətənə qayıtdım. Yaşadığım otaqda ora işləməyə gedən atam yaşayırdı. Sonra atam zəng vurdu "Lyuba xanım

dünyasını dəyişdi, dəfn elədik. İndi qızı ilə oğlu gəlib evi satmağa". Tüklərim biz – biz oldu. Bu qədər vaxtı bir ananın qapısını açmayan övlad, sən demə, bu günü gözləyirmiş. Atamı da evdən çıxarmışdılar. Evi satıb pulunu öz aralarında bölüşdürmüşdülər. O vaxtdan fikirləşirəm, görəsən, pişiyi neynədilər?!

## O yuxunu görməsəydim, anam ölməyəcəkdi

Uşaqlıqdan bu yana həmişə qəribə yuxular görürəm. Şairlərin və yazıçıların bu haqda hardasa vergili olduğu danılmazdı. inandırıcı olmasa da, hələ günün ulduz falını da oxuyuram. Anam xəstə olanda daha çox qarışıq yuxular görürdüm. Elə bil ağrıların gözü var idi. Ancaq axşam düşən kimi başlayırdı anam zarımağa. Bakıda ən bahalı klinikaları gəzdirmişdim. Həkimlər "sinir ağrısı" kimi yanlış bir diaqnoz qoymuşdular qadına. Yazıq qadın o qədər ağrıyırdı ki, həmin vaxtı Allahdan da gileylənirdi. Deyirdi "İlahi, sənə neyləmişəm, belə zülm verirsən mənə?!" Edilən müalicələrin də heç bir köməyi yox idi. Yazıq qadına o qədər iynə vurmuşdular ki, hər yeri daş kimi idi. Ancaq hərə bir torba dava-dərman yazırdı ki bunlardan istifadə elə.

Hər gün evə zəng vurub ağrılarını soruşurdum. Sonra həkimlər dedilər ki, belində yırtıq var. Hələ bir əməliyyat da elədilər qadını. Ağrısız günlərinin sayı cəmi beş gün çəkdi. Həmin beş günün gecəsini rahat yatdı anam. Hələ bir qurban da kəsdim ki, şükür, anam sağaldı. Sonra yenə gileyləndi ki, ağrıyıram. Özüm də dilxor oldum. Qonum-qonşuda bel yırtığından əməliyyat olunan qadınların bir neçəsi gəlib dedi ki "vallah, biz də əməliyyat olunmuşuq. Amma belə ağrılar olmayıb. Sənin ağrıların kəsməliydi. Axı niyə də belə olsun?!"

Bir dəfə yatıb yuxuda gördüm ki, anam rəhmətə gedib. Həyətimizdə adam əlindən daş atsan, yerə düşməz. Öz səsimə yuxudan oyananda gördüm ki, yuxu görürmüşəm. Əlimi üz-gözümə vurub gördüm ki, suyun

içindəyəm. Həm ağlamışam, həm də tərləmişəm. Yerimdən qalxıb, hamama keçib yuyundum və təzədən yerimə uzandım.

Gündüz yuxumu dostlara danışanda dedilər ki, ömrü uzun olacaq. Buna elə sevinmişdim ki, elə bilirdim, doğrudan da, ömrü uzun olacaq. Hələ zəng vurub özünə də demişdim. Ağlamışdı.

Anam ağrılarının dördüncü ayında əməliyyat olunmuşdu. Yenidən Bakıya gətirdik. Həkimlər bu dəfə bildirdilər ki, qanından analiz verilməlidi. İlahi, bu vaxta qədər bütün gözləntilərin ən çətininin analiz cavabı olduğunu bilmirdim. Qan analizi verdikdən sonra səhəri gün saat 11-də həkimlərin dediyi vaxtı xəstəxanaya gəldik. Binanın üçüncü mərtəbəsinə qalxıb laboratoriyada işləyən xanımlara anamın adını və soyadını deyib analizin cavabı istədim.

Xanım analizi cavabını gətirib mənə verəndə ürəyim dözmədi, – xanım qorxulu bir şey yoxdu ki? – deyə soruşdum. Xanım qız üzümə gülümsəyib qorxulu bir şey yoxdu burda, niyə belə ağrısın ki ananız?! – dedi.

İçimdə bir az rahatlıq tapdım. Bu xəbəri koridorun o başında həkimin qapısının ağzında gözləyən anama da dedim. Birlikdə anamla həkimin qəbuluna girdik. Həkim qan analizinə ciddi-ciddi baxıb anamdan soruşdu:

– Təzyiqin olurmu, bibi?

Anam sevincək bildirdi ki, elə də yox, hərdən olur.

– Siz düşün, aşağıda qızlar sizin təzyiqinizi ölçsün.

Anamın qoluna girib aşağı düşürəndə həkim "sən bibini aşağı qoyub özün qayıt, ressepti yazım get dərmanları al, – dedi. Anamı aşağıda otağa ötürüb üçüncü mərtəbəyə qalxdım. Həkim gah analiz kağızındakı ya-

zıların üstünə rəngli karandaşla xətt çəkir, gah da üzümə baxırdı. Amma, həkimin alnını düyünləməsi mənə yenə nəyinsə baş verdiyini anlada bilmədi. Hıkim birən gözlərini gözümün içinə zillədi:

– Bilirsən, bu heç də yaxşı şeyə oxşamır.

Həmin vaxt bədənimə bir gizilti gəldi.

– Necə yəni yaxşı şeyə oxşamır?!

– Bu, xərçəngin əlamətləridi.

– Həkim siz nə danışırsınız? Bəs deyirdiniz belində yırtıq var. Əməliyyat da elətdirdik. İndi bu hardan çıxdı?!

– Allah eləsin, bu olmasın. Amma, çox təəsüf ki, əlamətləri ona oxşayır. İndi sənə bir yer deyəcəm, ora aparársan. Orda da dörd aparatdan keçəcək. Bundan sonra dəqiq biləcəyik ki, xəstəlik odur, yoxsa yox.

Kağızları götürüb birinci mərtəbəyə düşdüm. Gördüm ki, anam təzyiqini ölçdürdükdən sonra gözləmə zalında oturub məni gözləyir. Qadın yenə gözümün içinə baxdı:

– Nə dedi həkim? Yenə dərman yazdı?

Bədənimdəki giziltiləri bir kənara qoyub, özümü ələ almağa çalışdım.

– Yox, ana. Dərman yazmadı. Aparatlara yazıb, ondan keçməlisən.

Anamı dörd aparatdan keçirdilər. Xəstəxanada da halı pisləşdi. İkimiz də ağladıq. Araya xalam girdi “bəsdirin, ağlamayın”. Cavabı üç gündən sonra deyəcəkdilər. Ona görə üç gün gecə-gündüz dua edirdim ki, o zibil xərçəng olmasın.

Qalan nə xəstəlik olsa, sağalda bilərik. Hələ anamla olan şəklimizi evdə “Quran”ın arasına qoymuşdum ki,

İnşallah sağalar. Yenə qurban dedim. Bu neçə günü anamı ağrıkəsici ilə sakitləşdirirdik.

Səhər tezdən qalxıb xəstəxanaya yollandım. Həkimlər diplomat kimi olan kağız çantada analiz cavabını verdilər. Ürəyim yenə dözmədi, elə ordakı həkimdən soruşdum ki, doktor nə xəstəlikdi anamda?!

Həkim bildirdi ki, elə də qorxulu bir şey yoxdu. Qanında "Myeloma" xəstəliyi var. Bunu da müalicə edirsən, keçib gedir. Sən öz həkiminin yanına get, o sənə hər şeyi deyəcək. Anamın həkimi qara rəngli lövhələrə baxıb başını bulladı: "vəziyyət yaxşı deyil. Ana xərçəngdi". İlahi, elə bil başıma qaynar su tökdülər.

– Bəs nə qədər yaşayacaq? Bunu bilirsiniz?

– Vaxta var hələ. Bizim belə xəstələrimiz çoxdu. Yaşayırlar bir il, iki il-filan... Çalış apar İrana ananı. Orada müalicə olunsun. Sən tədarükünü gör. Nə arzuları var, yerinə yetir. Alınsa, toyunu da elə.

Həkimdən ayrılıb aşağı düşəndə gördüm ki, anamın telefonundan zəng gəlir. Telefonu açanda gördüm ki, bacımdı. Xırıltılı səslə soruşdu:

– Analizin cavabları nə oldu?! Vəziyyəti yaxşı deyil e nəsə.

O gün hamını aldatdım, bir anamdan başqa. Anamı da aldatmaq istədim, amma alınmadı. Bacıma dedim ki, narahat olma qanında mikrob var, sağalacaq. Bir ağrıkəsici vurun gəlirəm.

Metronun "28 May" stansiyasının qarşısında o qədər ağlamışdım ki, gözlərim qıpqırmızı idi. Adamlar yenə qaça-qaçda idilər. Öz-özümə deyirdim ki, İlahi, bu boyda başıma gələnlər heç kimin vecinə deyil?! İnsanlar neyə belə soyuqqanlıdırlar?!

Metroya minib gedəndə anam daha əlçatmaz görünürdü mənə. Ürəyim sıxılırdı. Elə bilirdim, boğurlar məni. Anam bacımgildə yatırdı. Qapıdan içəri girib anamla görüşdüm:

– Necəsən, ana? Darıxma, yaxşı olacaqsan, həkimlər qanında mikrob deyir. Ona görə bu qədər ağrıyırmışsan.

Anam yataqda gözüylə mənə tərəf baxıb dedi:

– Bəs niyə ağlamısan?! Nəsə pis xəstəlikdi?!

Anam sağ çiyni üstə uzanmışdı yataqda. Sağ əlini də yataqdan bayıra uzatmışdı. O, çox vaxt belə yatırdı. Özümü saxlaya bilmədim. Diz çöküb bayıra uzatdığı əlini ovuclarımın arasında dodaqlarıma sıxdım:

– Ana, vallah, yox. Sadəcə qanına mikrob düşüb, sağaldacam səni. Allaha and olsun, sağalacaqsan.

Bunu deyə-deyə ikimiz də ağlayırdıq. Hönkürtülərimin səsinə o biri otaqdan bacım gəldi. O da qoşuldu bizə. Özümü ələ almağa çalışdım. Durub anamın yatağının qırağında oturub əlindəki dəsmalla göz yaşlarını sildim. Artıq son bir neçə günü anam yeməkdən də düşmüşdü:

– Ürəyin nə istəyir alım, ana?! Sən yemirsən, mənim də boğazımdan heç nə keçmir. Nə olar, bir şey ye!

Anam gözləri ilə tavana baxıb bir az fikirləşdi. Araya hardasa beş saniyə sükut çökdü. Birdən dilləndi:

– Armud istəyirəm.

Tez uşağı yolladım ki, gedib armud alsın. Uşaq çox keçmədi ki, armud alıb gətirdi. Bacım armudu yuyub gətirdi. Dilimləyib anama verdim. Bir-iki dilim yedi. Biz də anamıza baxıb yedik bacı-qardaş. Səhəri gün İrana yola düşməyi planlaşdırmışdıq. Evə qayıdıb xarici pasportumu, pal-paltarımı götürüb bacımgilə gedəndə yolda ana-

mın telefonundan yenə zəng gəldi. Telefonu açan kimi bacım elə qışqırdı ki:
– Tez çat, anaya nəsə olur!

Telefonda hiss elədim ki, deyəsən, gecikmişəm. Çünki, evdə nə qədər qadın ağlaşmasının səsi eşidilirdi. Küçənin başındakı dayanacağa doğru bir az qaçdım, yolda ayaqlarım tutuldu, yıxıldım. Yenə ayağa qalxıb qışqırdım:
– Ana!

Dayanacaqda dayanmış taksiyə minib anamın yanına çatdım. Gördüm ki, gecikmişəm. Təcili yardım maşınından düşən qadın mənə yaxınlaşdı:
– Mərhumun nəyisiniz?
– Oğluyam.
– Şikayətçi deyilsiniz ki?
– Xeyr.
– Buyurun, bu da ölüm haqqında kağızdı.

Anamın cansız bədənini maşına qoyub kəndə, evimizə gətirdik. Gördüm ki, yuxumda gördüyüm adamların hamısı həyətimizdədi. Onda anladım ki, sən demə, səhərə yaxın yuxular düz çıxır. Gördüyüm yuxuyla anamın ölümü arasında bir ay fərq oldu. Anam da onu elə bəlkə də, bildiyi üçün ağlayıb. Amma bundan sonra kimin ölümünü yuxumda görsəm, bilirəm ki, bu qədər ağrımayacam.

O gündən – bu günə harda armud görürəm, elə bilirəm ki, anamdı. Anam armudu çox sevirdi. Armud yeyən idi anam. Həyətimizdə anamın təndirinin yanında bir armud ağacımız var. Həm o armud ağacı yiyəsiz qalıb, həm də anamın təndiri.  Bir də elə bilirəm ki, o yuxunu görməsəydim, anam ölməyəcəkdi.

## Ərləri çörək dalıyca getmiş gəlinlər

Oxuduğun kitablar sənə keçmişini xatırladanda daha çox maraqlı olur: kitabı yerə qoymaq istəmirsən. Özü də ki bu bizim yazarın əsəri olanda daha çox sevinirəm. Məsələn, Cerom Devid Selincerin "Çovdarlıqda uçurumdan qoruyan"ını oxuyanda düşünmüşdüm ki, görəsən, bunu bizim yazıçı yazsaydı, bu qədər uğur qazanardımı?! Niyə də olmasın?!

Elə Mirmehdi Ağaoğlunun "Bu gün səbr elə" romanı kimi. Mirmehdi ilə elə də yaxından tanışlığım yox idi, heç bir dəfə də olsun görüşməmişdik. Amma yazıçı kimi tanıyırdım. Onunla "Kibrit" kafesində Şəhriyar Del Geraninin şeir gecəsində tanış olduq. Səhəri gün romanını alıb oxudum. Əsər haqda ətraflı məlumat versəm düşünürəm ki, maraqsız olar sizin üçün. Yaxşısı budur ki, alıb oxuyasınız və bugünkü real həyatla bağlı bir ailənin timsalında neçəneçə soydaşımızın banka olan kredit borcuna görə nələrə qatlaşdığının şahidi olarsınız.

Mirmehdinin bu əsərini oxuduqca kəndimiz yadıma düşdü. Kəndimizin başında böyük spirt zavodu var idi. Atam orda işləyirdi. Zavod bağlandıqdan sonra maddi durumumuz daha da pisləşdi. Ailədə beş nəfər idik və bir atam işləyirdi. Atam çörək qazanmaq üçün məcbur olub Rusiyada yaşayan qardaşlarının yanına getdi. Onu da deyim ki, Rusiyada yaşayan əmilərimdən biri on il fizika müəllimi işləyib burda. Sonra siqaret pulu tapmadığı üçün bu peşəyə tüpürüb, ailəsini də götürüb ölkədən getdi. Təsəvvür edin ki, yay gələndə küçəmizdə bir dənə

kişi qalmırdı: hamı bir tikə çörək üçün Rusiyaya gedirdi. Hətta bir toyuq başı kəsdirməyə kişi tapmırdıq. Onda biz hələ sünnət olunmamışdıq və məcburən toyuqların başını özümüz kəsirdik. Bunu bir şeirimdə də yazmışdım ki

Ərləri xaricə çörək dalıyca getmiş gəlinlər bir toyuq başı kəsdirməyə kişi tapmadılar, sünnət olunmamış uşaqlara “Bismillah” deməyi öyrətdilər və bir də qibləni göstərdilər.

Elə birinci sinfə də xalam məni aparmışdı. Atası Rusiyada olan uşaqlara müəllimlər də varlı kimi baxırdılar. Məsələn, məktəbin odununu evinə daşıyan direktorumuz deyirdi ki, sən sinifinizə yandırmağa odun gətir, siz imkanlısınız, atan Rusiyadan gəlib.

Təsəvvür edin ki, atam ilin doqquz ayını evdə olmurdu. Bu qədər vaxt ərzində kişi xeylağının Rusiya kimi bir yerdə kiminləsə “obişatsa” eləməməsi mümkünsüz idi. Bunu zarafata salıb anama da deyirdik. O da deyirdi ki, olsun da, neynək, heç olmasa bir az pul yollasın, sizi yerbəyer edək, sonra qayıdıb gələr.

Mirmehdinin romanındakı Dilbər xanım vəziyyətdən çıxmaları üçün iki uşağının atası olan Nəsimini Amerikadan gəlmiş Məlahət xanımla evləndirməyə necə məcbur olmuşdusa, anam da bizim gələcəyimiz üçün atamı rus qadınlarına eləcə qurban vermişdi. Atamla anam belə plan qurmuşdular ki, biz üç uşağı yerbəyer edəndən sonra atam “rusiyət”ə getməyəcək və onlar öz həyatlarını yaşayacaqlar.

Anam rəhmətə gedəndə atam qəbrinin üstündə ağlayaraq belə dedi: “Biz heç doyunca bir-birmizi görmədik. İndi – indi ağzımız çörəyə çatmışdı. Bəs niyə yarıyolda qoydun məni?!”

## Qəzet köşkündə yatan qadın

Artıq on iki ildir ki, mətbuatda həm bədii, həm də publisistik yazılarımla çıxış edirəm. Bir çox adamların problemlərini işıqlandırmışam. Bunlardan problemi həll olunan da olub, həll olunmayan da. Problem həll olunmayanda həm özüm sınıram, həm də problemini işıqlandırdığım adam məndən inciyir "yazdın, amma baxan olmadı". Heç cür izah etmək olmur ki, sənin problemini adıçəkilən qurum həll etməli idi, mən yox: mənim işim onu ictimailəşdirməkdi. Cəlilabadda qəzet köşkündə bir qadın yaşayır. Bəli. Düz eşitdiniz. Həm orda işləyir, həm də orda yaşayır. Adı Lyudmiladı. Bu qəzet köşkü isə rayon təhsil şöbəsi ilə düz üzbəüz yerləşir. Bundan bu tərəfdə, yəni yolun o tayında rayon icra hakimiyyətinin binası yerləşir. Ötən il onunla təsadüfən rayonda rastlaşdım və həyat hekayəsini qələmə aldım.

Bakının özündə belə əlində qəzet satan kişi (uşaq, gənc, ahıl) görəndə təəccübləndiyimiz bir zamanda Cəlilabadda Lyudmilanı görüb də təəccüblənməmək mümkün deyil.

O, qəzet satır – səyyar. Qəzet almaq adıyla yaxınlaşdım və bir taleni vərəqlədim: alıcısı çox az tapılan bir bazarda qəzet satmaq və elə qəzet köşkündə də gecələmək... Daha doğrusu, yaşamaq. Lyudmila xanımın bütün həyatı bundanibarətdir. Olanları Lyudmilanın öz dilindən oxuyun.

"Soboleva Lyudmila Aleksandrovna. 1962-ci ildə Cəlilabad rayonunda anadan olmuşam. Əvvəllər Lənkəranda idarədə mühasib işləyirdim. 1988-ci ilə kimi orda işlədim. Sonra Cəlilabada qayıtdım. Evdə xəstə nənəmə baxırdım, anam da işləyirdi. Heydər Əliyev prospektində evimiz var idi. Anamgil qardaşımla bərabər nənəm öldükdən sonra evimizi satıb Rusiyanın Stavropol şəhərinə köçdülər. Mən getmədim. Bilirəm ki, ora getsəm, yaşaya bilməyəcəm. Atam, xalam, nənəm və bir çox qohumlarım burda dəfn olunub. Qəbiristanlığa gedirəm, qəbirlərini ziyarət edirəm. Anam da Stavropola köçdükdən sonra darıxır. Burda doğulub böyüdüyümdən başqa bir yerdə qalmaq istəmirəm. Azərbaycan mənim vətənimdi. Çox sağ olsunlar, burda hamı mənə hörmət eləyir.

İlk məhəbbətimə qovuşmadım. İyirmi bir yaşım var idi. Lənkəranda işləyəndə bir hüquqşünas oğlan sevirdi məni. Doğrusu, mənim də könlüm var idi. Gəlib evimizdə valideynlərimlə məsləhətləşdim. Valideynlərim dedi ki, sən ona ərə getsən, gərək İslam dinini qəbul edəsən, namaz qılasan. Oğlana dedim olanları, o da dedi ki, mən səni belə də qəbul edirəm. Bu o demək deyil ki, sən bizim dinə keçəsən. Dedi ki, gəl qaçırdım səni, birlikdə yaşayaq. Mən isə razı olmadım. Dedim ki, valideynlərim icazə vermir. Ondan sonra ailə qura bilmədim.

Anamgil köçüb getdikdən sonra evsiz qaldım. Rayon İcra Hakimiyyətinə müraciət etdim. Onlar da mənə Göz xəstəxanasında bir otaq verdilər. Ötən ilə kimi orada yaşayırdım. Xəstəxananı təzə binaya köçürdükdən sonra mən də çıxmalı oldum. Baş həkim deyir ki, bura xəstəxanadı, yaşayış yeri deyil.

Dörd ildi qəzet köşkündə işləyirəm. Üçüncü ildir ki, işlədiyim bu köşkdə də yaşayıram. Sakinlər yatmağım üçün çarpayı da veriblər. Gündəlik yeməyə kim nə bişirir, mənə də verirlər. Sağ olsunlar, onların sayəsində yaşayıram. Hərdən özüm də pulum olanda ərzaq alıb xörək bişirirəm.

Görürəm ki, köşkə gələn yoxdu, çıxıb özüm satıram qəzetləri. Həftənin ikinci və beşinci günləri qəzet satışı yaxşı olur. Çünki həmin günlər "Bukmeker" qəzeti gəlir. Bir çoxları hesab yazdıqlarına görə satış yaxşı olur. Qalan günlər isə satış zəifləyir. Əsasən də internetin olması çoxlarını qəzetdən uzaqlaşdırıb. Bir çoxları da ki bu günə kimi məndən aldıqları qəzetin pulunu ödəmirlər. Ünvanlarını da bilmirəm. Bir qəzet nədir ki, onu da nisyə alırsınız? Ayda 20-25 manat qəzetdən pul qazanıram. Çünki bir çox müştərilər imkansız olduğumu bilib, pulun qalığını almır.

Burda hər şey yaxşıdı. Dolanışığım da pis deyil. Amma evsizlik çox çətindi. Mənə bir otaq versinlər, qalan ömrümü orada yaşayım. Bu boyda rayonda bir yer yoxdumu ki, məni yerləşdirsinlər? Axı mən də insanam. Adam kimi yaşamaq istəyirəm. Havalar soyuyub, donuram burda. Burda o qədər boş evlər var ki! Mənim onsuz da heç kimim yoxdu. Öləndə heç olmasa, bir yerim olsun. Vaxtlı-vaxtında çimə bilmirəm. Bir rəfiqəm var. Həyat yoldaşı daş karxanasında işləyir. Əri evdə olmayanda küçələrdən taxta qırıntıları toplayıb gedib onlarda çimirəm".

Bu qadının problemini mətbuatda işıqlandırsam da, heç bir tədbir görülmədi. Yəni o boyda rayonda rayon rəhbərliyi kimsəsiz qadını bir evə yerləşdirmədi. Özüm-

özümdən utandım. Utandım ona görə ki, bir kimsəsiz qadının problemini işıqlandırasan, o da həll olunmaya.

İndi bu qarlı havada yadıma düşən o qadın üçün, doğrudan da, vicdan əzabı çəkirəm. Bu soyuq havada anam necə öz məzarında üşüyürsə, Lyudmila da qəzet köşkündə elə üşüyür. Allah haqqı rayonda elə bir yerim yoxdu. Olsaydı, bir otaq ayırardım, orda ömrünün sonuna qədər yaşayardı.

## Çarlz Bukovski

Amerikan yazıçısı Çarlz Bukovskinin hekayələr kitabını oxudum: amma erotik mövzuda yazılmış hekayələrini bəyənə bilmədim. Yəni elə də dərin məzmunlu bir şey görmədim hekayələrində. Bu, Bukovskinin üslubu olsa belə.

Bundan sonra isə yazıçının məşhur "Qadınlar" romanını oxudum.  Doğrusu, yaxamız sosial problemlərin əlində qaldığı bir vaxtda bu romanı oxumaq hər axşam bir neçə saat məni stressdən uzaqlaşdıra bildi.

Əsərin əsas qəhrəmanı Henri Çinaskidir. Əsər boyu qadınlara görə Henrinin düzəni pozulur: döyülür, soyulur və maşını əzilir.

Bütün bunlara baxmayaraq, o, eyni şeyləri yenə təkrar edir. Onun xanım oxucuları başqa şəhərlərdən zəng vurub evinə gəlirlər.

Evinə gələn qadınlar onun evindəki tör-töküntüdən dəhşətə gəlir. Hər yerdə araq butulkaları, hər tərəf zibilin içində olur. Amma bütün bunlara baxmayaraq, onun gənc oxucuları belə 55 yaşlı Henri ilə yatağa girilər.

Henri Çinaski şeir axşamlarına gedir və şeir oxuyur. Bu isə onun sərxoş tamaşaçılarının çox xoşuna gəlir. Henri bu şeir axşamlarından hətta yaxşı qonorar da alır. Əsəri oxuduqca görürsən ki, bir neçə hadisədən sonra onun yataq səhnələri təkrarlanır. Sadə dildə yazılmış əsərin bu qədər oxucu marağına səbəb olması, adamı təəccübləndirməyə bilmir.

Amma əsərin sonunda Henri, görünür, nəsə fikirləşir. Ona zəng edən gənc Roşeldin evinə gəlməsini istəmir.

Çarlz Bukovski bu romanı ilə "oxucuları ilə yatan yazıçı" kimi qaldı xatirimdə.

## MÜHARİBƏ VƏ BİZİM UŞAQ BAĞÇASI

Beş yaşım var idi, onda 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə rus ordusu yüzlərlə insanı Bakıda qanına qəltan etmişdi. Nə baş verdiyini anlamasam da, televizorda göstərilənlərdən bilirdim ki, nəsə yaxşı şey baş verməyib.

Kəndimizdə uşaq bağçamız var idi. Özümdən iki yaş kiçik olan qardaşımla bağçaya gedirdik. Atam bir tikə çörək qazanmaq üçün Rusiyaya getdiyinə görə bizi bağçaya anam aparırdı. Yay aylarında bizim kəndimizdə kişisiz evlərin sayı daha çox olurdu. Çünki yayda kəndin kişiləri işləmək üçün ya paytaxt Bakıya, ya da Rusiyaya üz tuturdular. Ona görə də yay aylarında evlərin böyük uşaqları özlərini evin kişisi saydığından daha məsuliyyətli olurdular. Yeddi yaşında evin kişisi olan uşaqlardan biri də mən idim.

1992-ci ilin sentyabr ayında kənd orta məktəbinin birinci sinfinə daxil oldum. İbtidai sinif müəllimim rəhmətlik Hüseynəli müəllim həm atamın, həm rəhmətlik anamın və indi də mənim müəllimim idi. Belə müəllimlərim bir neçə nəfər idi məktəbdə: həm valideynlərimin, həm də mənim müəllimim oldular. Məktəbə getdiyimə görə qardaşım uşaq bağçasına tək getməli oldu.

Məktəbin həyətində oynayanda gördük ki, kəndimizə adam və ev əşyaları ilə dolu avtomobil karvanları gəlir. Nə baş verdiyini anlamadığımıza görə müəllimlərimizdən soruşduq ki, bunlar kimdi? Müəllimlərimiz dedi ki, onlar müharibənin qurbanı olaraq öz yurd-yuvalarından didərgin düşən məcburi köçkünlərdi.

Kəndimizə işğal olunmuş rayonlarımızın bir çoxundan pənah gətirən ayağını don vurmuş uşaqları və qadınları bizim uşaq bağçasında yerləşdirdilər. Ondan sonra kənd uşaqlarımızın bağça arzusu da məhv oldu. Müharibə həm bizim kənd uşaqlarının arzusunu, həm də öz yurd-yuvalarından didərgin düşmüş uşaqların arzusunu ürəyində qoydu. Bundan sonra kəndimizin bir çox uşaqları bağçaya gedib öz tay-tuşları ilə dostluq edirdilər. Çünki onlar yatdıqları çarpayını öz qardaş və bacılarına vermişdilər. İndi kəndimizdəki uşaq bağçasından bir çox sakinlər şəhərciklərə köçüb. Amma uşaq bağçasında yaşayanlar da var. Müharibə beləcə neçə-neçə uşağı şikəst elədi.

## Qadınlar nə istəyir, kişilər nə verir?

*"Məsuliyyəti böyük olan insan – müsbət, xoşniyyətli, özünə inamı olan, ayaqları üzərində duran və özünü idarə etməyi bilən biridir".*

Mustafa Kılıç

Bu yaxınlarda dünya NLP təlimçiləri arasında yer alan ilk türk təlimçi və hal-hazırda Amerikada yaşayan Mustafa Kılıçın "Qadınlar nə istəyir? Kişilər nə verir?" adlı kitabını oxudum. Onu deyim ki, kitabda həm şəxsi inkişafla bağlı, həm də qadınlarla bağlı yaxşı məlumatlar var. Qadınlarla bağlı yazılanlarda bir çox fikirləri ilə razı olmasam belə, razı olduğum məqamlar da var.

Müəllif iddia edir ki, yeni bir sevgi beyində başlayır. Sevginin başlanğıc və bitmə nöqtəsi beyindir. Daha bir maraqlı məqam isə kişi və qadın beyinlərinin hansının üstün olması ilə bağlıdır.

Qadın beyni: Sağ beyin funksiyalarına daxil olan işlərdə (xəyal qurmaq, yaradıcı olmaq, fantaziya və hisslər) kişilərin beyni ilə müqayisədə daha avantajlıdır.

Kişi beyni: İstiqaməti müəyyən etmədə, riyazi məsələlərdə, konkret və mücərrəd anlayışlara bağlı işlərin görülməsində qadın beyni ilə müqayisədə daha avantajlıdır.

Qadınların bildiyi, kişilərin xəbərsiz olduğu cəlbetmə taktikası...

Müəllif yazır ki, qarşınızdakı insandan nə istədiyinizi bilsəniz, potensial namizədi axtarmaqla kifayətlənməyib özünüzü də istənilən səviyyədə ifadə edə bilər-

siniz. "Bir münasibətin uzunömürlü olmasının yeganə yolu qarşındakına ondan nələrsə almaq deyil, ona nələrsə qazandırmaq üçün gediləcək yol kimi baxmaqdır". Qadınlar xarici görünüşlərinə diqqət yetirdiklərinə görə istəyirlər ki, kişilər də qəşəng geyinsin. Həm də üstümüzdən qadın qarşısında gözəl qoxu gəlməlidir. Diqqət çəkməliyik, macerapərəstlik, həm isti, həm soyuqluq, çətin adam roluna girmək – bir sözlə, kişiliyimizdən istifadə etməliyik.

Bu, sizinlə bölüşdüyüm fikirlərin bir hissəsidir. Ətraflı məlumat üçün mütləq kitabı oxumalısınız.

## Nisyə dəftəri

Anam öləndən sonra evə nisyə aldığı ərzağın pulunu vermək üçün dükana getdim. Dükançı dəftəri açanda gördüm ki, belə yazılıb: "Şəlalə 100 manat". Pulu çıxarıb dükançıya verəndə əlindəki qələmlə anamın adını elə qaraladı ki, ad oxunmaz hala düşdü. Bu, mənim üçün çox ağır səhnə idi. Mən anamı, dükançı isə bir müştərisini itirdi.

## Stiven Blumberqi həbs edən polisin məni "Torqovı"dan qovması

Cibimdə pulum, telefonumda konturum və bir də oxumağa kitabım olmayanda darıxıram.

Tanrı yaradıcı insana istedad verəndə elə bir mütaliə ehtiyacı da verir ki, adam bir gün nə isə oxumayanda həmin günün boşluğunu ancaq və ancaq kitab doldura bilir.

Təbii ki, bunu da hər kəsə aid etmək olmaz. Belə tərifləmək kimi çıxmasın, oxumağa kitabım olmayan günü özümü siqareti qurtarmış adam kimi hiss edirəm. Az qalıram kiməsə deyəm ki, mənə "bir gilə" kitab ver.

İnternetdə belə bir araşdırma apararkən görürük ki, dünyada 130 milyon adda kitab mövcuddur.

Statistik göstəricilərə gəldikdə isə, kişilərə nisbətdə qadınlar daha çox kitab oxuyurlar. Hazırkı göstəricilərə görə, dünyada kitab alıcıları 45 yaşdan yuxarı olan adamlardır.

Kitab oğruları dünyada bibliokleptoman adlanır. Dünyanın ən məşhur bibliokleptomanı Stephen Blumberg (Stiven Blumberq) sayılır. O, 268 kitabxanadan 23 min kitab oğurlayıb. Stivenin şəxsi kitabxanasının dəyəri 20 milyondan artıq qiymətləndirilir.

Kitab oxumağa alışmaq, oxumağı daha yaxşı öyrənmək üçün ən yaxşı yaş dövrü 4-6 yaşdır. Kitab oxuyanların 90 faizdən çoxu bir dəqiqəyə 210 söz oxuyur.

İnternetin kəşfi isə kitaba qarşı sanki bir soyqırım oldu. Bununla da insanlar bir çox məlumatları internetdən oxumağa başladılar. Amma nə qədər yaxşı olur-ol-

sun, bir romanı internetdən oxumaqdansa, kitabdan oxumaq daha xeyirlidir.

Son zamanlar kitaba laqeyd yanaşan bizim adamları da əlində kitab metroda, avtobusda görmək olur. İnsanlarda az da olsa, kitaba qayıdış var.

Amma bu qayıdışa kömək etmək, təkan vermək lazımdır.

Noyabrın 3-də sosial şəbəkədə “Book flashmob” təşkil edilmişdi. Tədbir şəhərin mərkəzində, Fəvvarələr meydanında baş tutdu.

Lider, ANS kimi televiziya kanalları çəkilişlər etməyə başladılar. Aksiyada oturaq halda kitab oxuyan kitabsevərlər şəhər əhalisi tərəfindən çox maraqla qarşılandı.

Aksiyaya mən də öz kitabımla getmişdim və düşünürdüm ki, sonda kitabımı hansısa bir oxucuya hədiyyə edərəm.

Amma çox keçmədi ki, əraziyə iki polis çavuşu gəldi. Soruşmağa başladılar ki, nə baş verir. Biləndə ki kitab oxuyuruq polislərdən biri belə cavab verdi:

– Gedin kitabınızı evdə oxuyun da!

Bildirdik ki, biz oxuyuruq. Amma məqsədimiz bu aksiyayla insanlarda da kitaba marağı artırmaqdır. Polis çavuşu yenə anlamadı. Götürüb öz rəislərindən kiməsə zəng vurdu.

Sonra dəstəyi Lider TV-nin aparıcısına verdilər. Bu dəfə xanım jurnalist rəisə məsələni yenə anlatdı. Polislər hamını ayağa qaldırdılar, "Dağılışın" – deyərək, bizi ərazidən uzaqlaşdırdılar.

Özlüyümdə xəcalət çəkdim ki, polisi belə çavuşlar olan dövlətin nəinki mülki sakinləri, ilk növbədə belə çavuşları kitab oxumalıdır. Bizi elə acıqla qovdular.

İndi yadıma düşdü axı, Stiven Blumberqi də həbs edən polislər idi. O, kitab oğurlamışdı. Buna görə həbs edildi. Nə küçədə söyüş söymüşdü, nə də ictimai asayişi pozmuşdu.

# SƏTİRLƏR

Dünyanın ən çətin gözləntisi
analiz cavabını gözləməkdi.

***

Tək yaşayan adamlar
evdə kiminsə olmasını istəməzlər.

***

Çiynimizdəki mələklər
Allahın kameralarıdı.

***

Küçələr gedib-gəlmək üçündür,
bircə ölülərə şamil olunmur.

***

Məni atıb gedən qızların
anaları yaxşı qadınlar olub həmişə.

***

Səni görüm mən necə paltar yuyuram,
elə şeir yazasan.

***

Tanrı, öldüyüm günü de,
Yasıma adam çağırım.

***

Mən hamını gördüm
metro çıxışında səni gözləyərkən.

***

Ailələr dağılanda ən çox uşaqlar ayaqlanar,
Onlar uçurulan evin daş qırıntıları kimidi sanki.

***

Zəng vurmadın, unutdum.

***

Hər gün rastlaşarıq,
sən məni sevmədiyin üçün ağlayarsan,
mən də səni unutmadığım üçün.

***

İndi bu ömürlə başdı, qatıram,
alan var, bilən var, dərdi satıram.
Ata, mən tikdiyin evdə yatıram,
sənsə mən qazdığım torpağın altda.

***

Kimdən danışasan, qeybət olmaya,
Kimi unudasan, ölə başında?..

***

Mənə sən öl vurma, canım,
Ölsəm, de, kim sevər səni?

***

Kimsə kimdənsə ayrılır
Kiməsə qovuşmaq üçün.

***

Hamı elə bildi, unutmuşuq bir–birimizi,
Bilmədilər incik düşdüyümüzü.

***

Qəbiristanlıqdakı gənc adamların məzarları,
dərsini yaxşı oxuyan uşaqlar kimidi –
onlar da, yaxşı adam olduqları üçün
bir neçə il irəli keçiriliblər.

***

Yox, belə olmaz, Vətən!
Lap düzlərin dağ olsun.
Nə qədər balan öləcək,
nə qədər başın sağ olsun?!

***

Verilən ürəklər
geri qaytarılmır,
məni sevməzdən öncə yaxşı fikirləş.

***

Bir qanad ver, uçaq, Allah,
bəlkə, sənə rast gəldik...

***

Anam xəstələnəndən sonra bildim
ağrıların gözü olduğunu,
həmişə gecə düşən kimi ağrıları başlayırdı.

***

Səni təzə unutdum,
bismillah eləməmiş
əllərindən öpməyə.
Demə, qayıdıb gələcəm,
qorxuram gözləməyə.

***

Dünyanın ən yaxşı qələbəsi
anamın canındakı ağrıların
ağrı bazasını bombalamaqdı.

***

Mən ölərəm, sən qalarsan,
gələrsən, gedə bilməzsən.

***

Analar öləndən sonra
atalar da lazımsız olur...

***

Məni şəhərə yola salandan sonra
öldü anam...

***

Mənim üçün darıxma,
anam üçün darıxıram onda...

***

Kəndlə şəhərin arasında qalmışam,
şəhərdə sən varsan, kənddə də anamın məzarı.

***

Ölkədə bu qədər idman kompleksləri tikilib,
amma adamlar hələ də bir-birini bıçaqla vurur.

***

Ehtiyac olanda imkanlılar dövlətini,
imkansızlar isə böyrəyini satar.

***

Qalxıb göyün üzündən şəhərə baxsan,
bütün metro çıxışları qarışqa yuvasına bənzəyəcək.

***

Bu dünyada olduğu kimi, o dünyada da
insanların bütün yaş təbəqələrindən adam var,
Yəni orda da adamlar bir-birini əmi, dayı, bibi, və s. kimi çağırırlar.

***

Səni ürəyimə saldım,
tromb yarandı ürəyimdə

***

Bütün qızlar qismətin badına getdi.

***

Atamı evdə qoyub hərəmiz bir tərəfə köçdük:
Anam ölümə, qardaşım Rusiyaya, bacım gəlin köçdü,
mən də Bakıya gəldim...

***

Sən yoxsan,
Siqareti qurtarmış adam kimiyəm
Allahsız, kimdən sorsam adını
bilən yoxdu.

***

İki ayın işıqpuluna oxşayır
Səndən gələn məktublar.

***

Sən yoxsan deyə
şkafdan asdığın paltarlarının
içi-içindən keçib

***

əlində şərab badəsiylə
Allahdan mənə xoşbəxtlik diləyən
cəfəng adamların sağlığından bezmişəm.

***

Bəzən elə zərbələr alırıq ki,
qorunmaq üçün öz doğma əllərimizi qabağaveririk.

## İÇİNDƏKİLƏR

*ŞEİRLƏR*


**ATAMIN AYAQLARI ........ 7**
**TƏKİ VƏTƏN SAĞ OLSUN ........ 8**
**SƏNİN DUALARIN ........ 9**
**YAŞLI QADININ MƏNDƏN SORUŞDUQLARI ........ 10**
**YOX, BELƏ OLMAZ VƏTƏN ........ 11**
**ÇİMNAZ XALA ........ 12**
**XOCALI FACİƏSİNİN QURBANLARINA ........ 13**
**KƏSİLMİŞ ŞALVAR AYAQLARI ........ 14**
**YARALI ƏSGƏRİN İLK ADDIMLARI ........ 15**
**ŞƏHİD TURAL ........ 16**
**QIZIM ŞUŞA ........ 17**
**ŞƏHİD HƏSƏN ........ 18**
**QULU AĞSƏSƏ ........ 19**
**KƏNDİMİZ ........ 20**
**BABAMIN ƏL QUYUSU ........ 21**
**TALE ........ 23**
**ÖMÜR ........ 24**
**SƏN BİLMƏZSƏN ........ 25**
**ANAM ........ 26**
**QƏBRİNDƏN ƏL BOYDA YER AÇ ........ 27**
**BACIM ÜÇÜN ........ 28**
**KÜRDƏXANIDA YAŞAYAN GƏNCİN ETİRAFI ........ 29**
**DÜNYANIN ƏN TƏHLÜKƏLİ MÜHARİBƏSİ ........ 30**
**ONDA DAHA BÖYÜK GÖRÜNÜRDÜK ........ 31**
**YERİ, ÇƏLİKLƏRİN QOLUNA GİRSİN ........ 32**

**BABAM AĞAPAŞAYA ........................................................ 33**
**QADINSIZ KİŞİLƏR ........................................................ 34**
**OĞLUMUZ UĞUR ÜÇÜN ........................................................ 35**
**ATALARI DƏNİZDƏ BATANLAR ÜÇÜN ........................................................ 36**
**SÜPÜRGƏÇİ QADIN ........................................................ 38**
**ƏLLƏRIN QABAR BAĞLAYIB ........................................................ 39**
**UŞAQLIĞIM YADIMA DÜŞÜR........................................................ 40**
**MƏN ƏMİMƏ BƏNZƏMƏDİM ........................................................ 42**
**ANAMIN XATİRƏSİNƏ........................................................ 43**
**YETİM UŞAQLARA HAMI QIŞQIRAR ........................................................ 45**
**ANAM EVDƏ YOXDU ........................................................ 46**
**GƏLİNİN GÖRMƏYƏN ANAM........................................................ 47**
**ALLAH, ANAM SİZDƏ DEYİL ........................................................ 48**
**DUR, ÇIX GEDƏK EVİMİZƏ........................................................ 49**
**GEDİŞİN AĞLIMA GƏLMƏYƏN ........................................................ 50**
**YATMAQ OLMUR... ........................................................ 51**
**BİZİM UŞAQLIQ XATİRƏLƏRİMİZ ........................................................ 52**
**TOYUMU GÖZLƏMƏDİ ANAM ........................................................ 53**
**HEÇ KİMİN GEDİŞİNƏ AĞLAYA BİLMƏYƏCƏM ............ 54**
**SƏNİ SAĞALTMAĞA SÖZ VERDİM ........................................................ 55**
**SONUNCU DƏFƏ ........................................................ 56**
**ANAMIN TƏNDİRİ........................................................ 57**
**ŞAİRLƏR HƏLƏM-HƏLƏM ADAM UNUTMAZLAR ....... 59**
**SƏNİN GETDİYİN GÜN ........................................................ 60**
**EVDƏ HEÇ KİM YOXDU........................................................ 61**
**SƏN ALLAH, QAYIDIB GƏLMƏ ........................................................ 62**
**SƏNİN YOXLUĞUN ÇOX KÖRPƏDİ........................................................ 64**
**HƏR GÜN RASTLAŞIRIQ ........................................................ 65**
**BİR GÜN OYANIB GÖRDÜM Kİ ........................................................ 67**

**ÜNVANINI BİLMİRƏM** ... **68**
**YORĞANDAN QADIN DÜZƏLTMƏK** ... **69**
**EVİN AÇARI** ... **71**
**ÖMRÜM UZUN OLACAQ** ... **73**
**SİNƏM QADIN BAŞI ÜÇÜN AĞRIYIR** ... **74**
**QOLLARI ARXASINA QANDALLANMIŞ MƏHBUS KİMİYƏM** ... **76**
**DİVARDA BİR ŞƏKİL YERİ SAXLA** ... **77**
**BİLƏKLƏRİM DİNCƏLİB** ... **78**
**SƏNDƏN ÖNCƏ DARIXDIĞIM BİR QADIN VAR** ... **79**
**SƏNİ BU ŞƏHƏRDƏ TAPMAQ ÇƏTİNDİ** ... **80**
**NİFRƏT ETMƏSƏM** ... **82**
**EVİN KİÇİYİ OLAN OĞLANLAR** ... **83**
**İÇİMDƏKİ QADIN** ... **84**
**MÜRGÜLƏYƏN UŞAĞIN YUXUSU** ... **85**
**ƏLİMİN YERİ SAĞALSA** ... **86**
**TƏK QALMIŞ ADAMAM Kİ** ... **88**
**SƏNDƏN NİGARANAM TİKAN ÜSTƏYƏM** ... **89**
**QATARDA YOL GEDƏN KOR SƏRNİŞİNƏM** ... **90**
**AÇILSIN SƏHƏRLƏR AZAN SƏSİNƏ** ... **91**
**İNDİ ELƏ RAHATAM Kİ UZAQDA** ... **92**
**KİMİ UNUDASAN, ÖLƏ BAŞINDA** ... **93**
**BƏXTİM DƏ GƏTİRMİR** ... **94**
**BAX, İNDİ TÜSTÜM DƏ TƏPƏMDƏN** ... **95**
**MƏN SİZİ SEVƏRKƏN BƏYƏNMƏYƏNDƏ** ... **96**
**GÖRƏSƏN, BU QADIN ŞƏKLİNİ MƏNƏ** ... **97**
**SƏNİN SAĞLIĞINA İÇİRƏM BUNU** ... **98**
**SƏN ƏN BÖYÜK TƏSƏLLİMSƏN** ... **100**
**BİRCƏ SƏN OL YANIMDA** ... **101**

**CANIMA BAĞLI ADAMLAR ....................................................... 102**
**ALLAH, ÖLDÜYÜM GÜNÜ DE ................................................ 103**
**BURDA DA GECƏ OLAR............................................................104**
**SÜMSÜK İTTƏK ......................................................................... 105**
**BİLİRƏM, KİMİNSƏ VAR ........................................................ 107**
**ALLAH HAQQI, DARIXMARAM ........................................... 108**
**ÇIX GET, DÜKANA DÖN ........................................................ 109**
**CİNGİLDƏYƏN QULAQLAR ................................................. 110**
**DİNCƏL, XINA YAX ƏLİNƏ ................................................... 111**
**RƏNGSİZ ÇAY DƏMLƏYİRƏM ............................................. 112**
**GÖZLƏ MƏNİ SABAH AXŞAM ............................................. 113**
**KÖYNƏYİMİ TƏMİZ SAXLA.................................................. 114**
**SƏN ELƏ YAXŞISAN Kİ ......................................................... 115**
**DÜŞDÜK ÜSTÜNƏ ALLAHIN ............................................... 116**
**NİYƏ KÖNÜLSÜZ SARILDIN ................................................ 117**
**OLMAZ Kİ ŞƏKLİNİ QOYUM .............................................. 118**
**MƏN DƏ ELƏ DARIXIRAM ................................................... 119**
**QARAÇI QIZ, FALIMA BAX ................................................... 120**
**ÖZÜM YOLA SALIM GET ..................................................... 121**
**HƏYATIMIN QADINI ............................................................. 122**
**DAŞ KİMİDİ KEÇƏN GÜNÜM ............................................. 123**
**ELƏ BİR VAXT GƏLDİN Kİ .................................................... 124**
**BU DÜNYAYA DAŞ QOYANIN ............................................. 125**
**ÜZÜNÜ GÖRÜB GEDƏRİK.................................................... 126**
**SIXILIR TƏK BİLƏNDƏ ......................................................... 127**
**HAMI LAP GETMİŞ KİMİDİ .................................................. 128**
**YÜZ İL KEÇSƏ, TANIYARAM ............................................... 129**

*ESSELƏR*

**RUS QADININ PİŞİYİ SEVMƏSİ ........................................ 131**
**O YUXUNU GÖRMƏSƏYDİM, ANAM ÖLMƏYƏCƏKDİ 133**
**ƏRLƏRİ ÇÖRƏK DALIYCA GETMİŞ GƏLİNLƏR ........... 139**
**QƏZET KÖŞKÜNDƏ YATAN QADIN ................................ 140**
**ÇARLZ BUKOVSKİ.................................................................. 145**
**MÜHARİBƏ VƏ BİZİM UŞAQ BAĞÇASI............................ 147**
**QADINLAR NƏ İSTƏYİR, KİŞİLƏR NƏ VERİR? .............. 149**
**NİSYƏ DƏFTƏRİ...................................................................... 151**
**STİVEN BLUMBERQİ HƏBS EDƏN POLİSİN MƏNİ “TORQOVI”DAN QOVMASI ................................................ 152**

***SƏTİRLƏR*.........................................................................155**

*Vasif Əlihüseyn*

# AZMIŞ KİMİ...

**şeir və esselər**

Çapa imzalanmışdır: 14.04.2022
Formatı 60x84 1/16.
Həcmi 10.5 / Sifariş № 983